**AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ**

**AZƏRBAYCAN DÖVLƏT İQTİSAD UNİVERSİTETİ**

**BEYNƏLXALQ MAGİSTRATURA VƏ DOKTORANTURA MƏRKƏZİ**

# “Qloballaşma şəraitində xarici iqtisadi fəaliyyətin gömrük-tarif tənzimlənməsinin təkmilləşdirilməsi yolları” mövzusunda

**MAGİSTR DİSSERTASİYASI**

**YUSİFZADƏ MİR YUSİF SEYİDƏHMƏD OĞLU**

**BAKI – 2020**

**AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ**

**AZƏRBAYCAN DÖVLƏT İQTİSAD UNİVERSİTETİ**

**BEYNƏLXALQ MAGİSTRATURA VƏ DOKTORANTURA MƏRKƏZİ**

**BMDM-in direktoru**

**i.ü.f.d., dos. Əhmədov Fariz Saleh oğlu**

**_________________________ imza**

**"____" _______________ 20__-ci il**

# "Qloballaşma şəraitində xarici iqtisadi fəaliyyətin gömrük-tarif tənzimlənməsinin təkmilləşdirilməsi yolları"

**mövzusunda**

## MAGİSTR DİSSERTASİYASI

**İxtisasın şifri və adı:** 060401-Dünya iqtisadiyyatı
**İxtisaslaşma:** Gömrük işi
**Qrup:** 822

**Magistrant**
**Yusifzadə Mir Yusif Seyidəhməd**
**______________________ imza**

**Elmi rəhbər**
**i.ü.f.d., b/m. Hüseynova Səkinə Yaqub**
**____________________imza**

**Proqram rəhbəri**

**i.ü.f.d., dos. Nəcəfova Kəmalə Akif**

**_________________________ imza**

**Kafedra müdiri**

**i.e.d., prof. Kəlbiyev Yaşar Atakişi oğlu**

**_____________________imza**

**BAKI – 2020**

## Elm andı

Mən, Yusifzadə Mir Yusif Seyidəhməd oğlu and içirəm ki, "Qloballaşma şəraitində xarici iqtisadi fəaliyyiətin gömrük-tarif tənzimlənməsinin təkmilləşdirilməsi yolları" mövzusunda magistr dissertasiyasını elmi əxlaq normalarına və istinad qaydalarına tam riayət etməklə və istifadə etdiyim bütün mənbələri ədəbiyyat siyahısında əks etdirməklə yazmışam.

# QLOBALLAŞMA ŞƏRAİTİNDƏ XARİCİ İQTİSADİ FƏALİYYƏTİN GÖMRÜK-TARİF TƏNİMLƏNMƏSİNİN TƏKMİLLƏŞDİRİLMƏSİ YOLLARI


## XÜLASƏ

**Tədqiqatın aktuallığı: Müasir dövrdə dünya ölkələrinin əsas məqsədi xarici iqtisadi siyasətlərinin təhlükəsiz şəkildə qurulmasını təmin etməkdir. Ölkə iqtisadiyyatının təhlükəsizliyinin təmin edilməsində gömrük siyasətinin rolunu böyükdür. Dünyada və ölkə iqtisadiyyatında aktual məsələlərdən biri gömrük-tarif tənzimlənməsidir. Hazırda bütün ölkələr inkişaf etmiş ölkələrin gömrük-siyasətlərinə uyğun daxili siyasət tətbiq edirlər. Bu səbəbdən də bu mövzu Azərbaycanda da aktual məsələlərdəndir.**

**Tədqiqatın məqsədi: Respublikamızda mövcud olan gömrük siyasətinin xarici iqtisadi fəaliyyətlə əlaqələndirmək və beynəlxalq təcrübəyə əsaslanaraq gömrük-tarif tənzimlənməsinin təkmilləşdirilməsi tədqiqatının aparılması dissertasiya işinin məqsədidir.**

**İstifadə olunmuş tədqiqat metodları: Aparılan araşdırmalarda elektron məlumat toplama üsulundan istifadə edilib. Əldə olunan məlumatlar statistik təhlil metodundan istifadə edilməklə sistemləşdirilib, qrafik və cədvəl şəkilində qeyd olunub.**

**Tədqiqatın informasiya bazası: Tədqiqat işinin informasiya bazası kimi yerli və xarici ədəbiyyatlardan, o cümlədən Dövlət Gömrük Komitəsinin və digər dövlət orqanlarının rəsmi statistik göstəricilərindən və.s istifadə olunmuşdur.**

**Tədqiqatın məhdudiyyətləri: Tədqiqat işinin məhudiyyətlərindən gömrük-tarif tənzimlənməsi ilə bağlı kommersiya yönlü məlumatların tam alına bilməməsi oldu. Bundan əlavə Azərbaycan Respublikasının xarici ticarəti zamanı ölkələrlə olan əlaqələr, müqavilələr haqqında məlumatlar əldə etmək mümkün olmadı.**

**Tədqiqatın elmi yeniliyi və praktiki nəticələri: Dissertasiya işində irəli sürülən təklif və tövsiyyələrdən gömrük sistemində xüsusəndə gomrük-tarif tənzimlənməsində istifadə edilməsi gömrük sisteminin fəaliyyətinin səmərəliliyinin yüksəldilməsinə imkan verə bilər.**

**Nəticələrin istafadə oluna biləcəyi sahələr: Tədqiqat zamanı əldə edilmiş nəticələr və informasiyalar gömrük sistemində, xüsusən də gomrük-tarif tənzimlənməsində istifadə edilməsi, gömrük sisteminin fəaliyyətinin səmərəliliyinin yüksəldilməsinə imkan verə bilər. Bunlarla yanaşı, dissertasiyanın nəzəri və təcrübi müddəalarından bu sahə ilə bağlı olan fənnlərinin tədrisində istifadəsi mümkün ola bilər.**



**Açar sözlər: Dövlət Gömrük Komitəsi, Gömrük-tarif Tənzimlənməsi, Xarici İqtisadi Fəaliyyət.**

# WAYS TO IMPROVE CUSTOMS AND TARIFF DETERMINATION OF FOREIGN ECONOMIC ACTIVITY IN THE CONTEXT OF GLOBALIZATION

## SUMMARY

**The actuality of the subject: The main goal of the world in modern times is to ensure the safe establishment of foreign economic policy. The role of customs policy in ensuring the security of the country's economy is great. One of the urgent issues in the world and in the country's economy is customs and tariff regulation. At present, all countries pursue domestic policies in accordance with the customs policies of developed countries. For this reason, this topic is also relevant in Azerbaijan.**

**Purpose and tasks of the research: The purpose of the dissertation is to link the existing customs policy in the country with foreign economic activity and to conduct research to improve customs and tariff regulation based on international experience.**

**Used research methods: Electronic data collection method was used in the research. The obtained data were systematized using the method of statistical analysis and recorded in the form of graphs and tables.**

**The information base of the research: Local and foreign literature, as well as official statistics of the State Customs Committee and other state bodies, etc. were used as the information base of the research.**

**Restrictions of research: Due to the limitations of the research, it was not possible to obtain complete commercial information on customs and tariff regulation. In addition, it was not possible to obtain information on relations and agreements with countries during the foreign trade of the Republic of Azerbaijan.**

**The novelty and practical results of investigation: The use of the proposals and recommendations put forward in the dissertation can increase the efficiency of the customs system, especially in the customs and tariff regulation.**

**Scientific-practical significance of results: The use of the results and information obtained during the study in the customs system, especially in customs and tariff regulation, can increase the efficiency of the customs system. In addition, the theoretical and practical provisions of the dissertation may be used in the teaching of subjects related to this field.**

**Keywords: State Customs Committee, Customs-Tariff Regulation, Foreign Economic Activity.**

# İXTİSARLAR

| | |
|---|---|
| **Aİ** | Avropa İttifaqı |
| **AR** | Azərbaycan Respublikası |
| **BMT** | Birləşmiş Millətlər Təşkilatı |
| **DGK** | Dövlət Gömrük Komitəsi |
| **İEÖ** | İnkişaf Etmiş ölkələr |
| **İEOÖ** | İnkişaf Etməkdə Olan Ölkələr |
| **MDB** | Müstəqil Dövlətlər Birliyi |
| **SSRİ** | Sovet Sosialist Respublikaları İttifaqı |
| **ÜTT** | Ümumdünya Ticarət Təşkilatı |
| **ÜGT** | Ümumdünya Gömrük Təşkilatı |
| **VAİS** | Vahid Avtomatlaşdırılmış İdarəetmə Sistemi |

## MÜNDƏRİCAT


| | | |
|---|---|---|
| | **GİRİŞ...............................................................................** | **8** |
| **I FƏSIL.** | **QLOBALLAŞMA ŞƏRAİTİNDƏ AZƏRBAYCAN RESPUBLİKASININ GÖMRÜK-TARİF SİYASƏTİNİN NƏZƏRİ KONSEPSUAL ƏSASLARI........................................** | **11** |
| 1.1. | Xarici iqtisadi fəaliyyətin formalaşması və inkişafında gömrük siyasətinin tənzimlənməsinin rolu və onun beynəlxalq standartlara uyğunlaşdırılması........................................................................ | 11 |
| 1.2. | Ölkənin iqtisadi təhlükəsizliyinin təmin edilməsində gömrük-tarif tənzimlənməsinin rolu.................................................................... | 21 |
| 1.3. | Gömrük-tarif tənzimlənməsinin tətbiqinin nəzəri əsasları və dünya təcrübəsi.......................................................................................... | 29 |
| **II FƏSİL.** | **AZƏRBAYCAN RESPUBLİKASININ XARİCİ İQTİSADİ FƏALİYYƏTİNİN MÖVCUD VƏZİYYƏTİ VƏ ONUN QİYMƏTLƏNDİRİLMƏSİ........................................................** | **38** |
| 2.1. | Qloballaşma şəraitində Azərbaycan Respublikasının dünya iqtisadi sisteminə inteqrasiyası............................................ | 38 |
| 2.2. | Ölkənin gömrük-tarif siyasətinin dünya iqtisadiyyatına İnteqrasiya şərtlərinin təmin olunmasında rolu və əhəmiyyəti........ | 40 |
| **III FƏSIL.** | **XARİCİ İQTİSADİ FƏALİYYƏTİN TƏNZİMLƏNMƏSİNDƏ GÖMRÜK- TARİF SİSTEMİNİN TƏKMİLLƏŞDİRİLMƏSİ İSTİQAMƏTLƏRİ.........................** | **54** |
| 3.1. | Xarici ticarət fəaliyyətinin gömrük-tarif tənzimlənməsi konsepsiyası və onun tətbiqi vasitələri.......................................... | 54 |
| 3.2. | Ölkənin xarici iqtisadi əlaqələrinin səmərələşdirilməsində gömrük-tarif tənzimlənməsinin əsas prinsipləri.............................. | 63 |
| 3.3. | Dünya təsərrüfat əlaqələrinin qloballaşması şəraitində gömrük-tarif tənzimlənməsinin təkmilləşdirilməsi istiqamətləri.... | 66 |
| | **NƏTİCƏ VƏ TƏKLİFLƏR.......................................................** | **72** |
| | **İSTİFADƏ EDİLMİŞ ƏDƏBİYYAT.........................................** | **75** |
| | Cədvəllərin siyahısı.................................................................... | 78 |
| | Qrafiklərin siyahısı..................................................................... | 78 |

# GİRİŞ

Dünya ölkələrinin təcrübəsi göstərir ki, müasir dövrdə qloballaşma şəraitində heç bir ölkə xarici-iqtisadi fəaliyyətlə məşğul olmadan normal inkişaf edə bilməz. Hazırda dünyada baş verən proseslər beynəlxalq iqtisadi inteqrasiyanı ölkələrin iqtisadi inkişafının zəruru şərtinə çevirmişdir. Respublikamız müstəqillik əldə etdikdən sonra dövlətin iqtisadi və sosial siyasətinin əsas məqsədi iqtisadiyyatın dinamik artımının, regionların tarazlı inkişafının, ölkə iqtisadiyyatının beynəlxalq iqtisadi münasibətlərdə mövqeyinin möhkəmləndirilməsi istiqamətində iqtisadi islahatların həyata keçirilməsini təmin etməkdən ibarətdir.

**Mövzunun aktuallığı:** Bütövlükdə dövlətin iqtisadi maraqlarını, ölkə iqtisadiyyatının xarici rəqabətin mənfi təsirlərindən qorumaq, idxalın əmtəə strukturunu səmərələşdirmək, ixracı stimullaşdırmaq, daxili istehsala şərait yaratmaq üçün gömrük-tarif tənzimlənməsinin təkmilləşdirilməsi istiqamətində aparılan tədqiqat daha çox aktual və diqqət mərkəzində olan problemlərin araşdırılması və onların həlli yollarının tapılması üçün təklif və tövsiyyələrin verilməsi və əldə olunan nəticə aparılan tədqiqatın aktuallığıdır.

**Problemin qoyuluşu və öyrənilmə səviyyəsi:** Gömrük sisteminin aparıcı sahələrindən biri kimi gömrük-tarif tənzimlənməsinin təkmilləşdirilməsi və mövcud problemlərin təhlil olunması üçün həm Azərbaycan, ham də dünya təcrübəsindən yararlanaraq tədqiqatın aparılmasında həm daxili, həm də xarici informasiyalara istinad edilmişdir. Mövcud şəraitdə gömrük siyasətinin təkmilləşdirilməsi istiqamətləri əsas hədəf kimi götürülmüşdür. Tədqiqatın aparılmasında və mövcud problemlərin araşdırılmasında gömrük-tarif tənzimlənməsinin beynəlxalq standartlara uyğunlaşdırılması əsas meyar kimi götürülmüşdür.

**Tədqiqatın məqsəd və vəzifələri:** Aparılan tədqiqatın əsas məqsədi ölkədə həyata keçirilən gömrük siyasətinin təkmilləşdirilməsi, bu sahədə mövcud olan qanunvericilik aktlarının beynəlxalq normalara uyğunlaşdırılması, iqtisadi təhlükəsizliyin təmin

edilməsi, xarici ticarət strategiyasının və iqtisadi siyasətin səmərəliliyin artırılması və gömrük xidmətlərinin inkişaf etdirilməsidir.

Tədqiqatda qarşıya qoyulmuş məqsədə nail olunmağ üçün aşağıdakı vəzifələrin yerinə yetirilməsi nəzərdə tutulmuşdur.

1.Ölkənin iqtisadi təhlükəsizliyinin təmin olunması istiqamətində təhlilin aparılması,

2.Gömrük sahəsində mövcud olan qanunvericilik aktlarının beynəlxalq normativ bazaya uyğunlaşdırılmasının təhlili,

3.Milli iqtisadiyyatın inkişaf etdirilməsi üçün xarici ticarət strastegiyasının araşdırılması,

4.Milli iqtisadiyyatın dünya iqtisadiyyatına inteqrasıya proseslərinin təhlili,

5.Xarici iqtisadi fəaliyyətdə gömrük-tarif tənzimlənməsinin səmərəli istiqamətlərinin müəyyənləşdirilməsi,

6. Qarşıya qoyulan məqsədə nail olmaq üçün gömrük-tarif tənzimlənməsində səmərəli nəticənin əldə olunmasında təklif və tövsiyyələrin verilməsi.

**Tədqiqatın obyekti və predmeti:** Tədqiqatın obyekti, Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsidir. Tədqiqatın predmeti isə gömrük-tarif tənzimlənməsinin nizama salınması üçün qanunvericilik aktları, normativ hüquqi baza, beynəlxalq standartlar, dövlət qanunları və s.

**Tədqiqat metodları:** Aparılan araşdırmalarda elektron məlumat toplama üsulundan istifadə edilib. Əldə olunan məlumatlar statistik təhlil metodundan istifadə edilməklə sistemləşdirilib, qrafik və cədvəl şəkilində qeyd olunub.

**Tədqiqatın informasiya bazası:** Tədqiqat işinin informasiya bazasını yerli və xarici ədəbiyyatların, bu sahədə aparılan tədqiqatların və o cümlədən Dövlət Gömrük Komitəsinin, Dövlət Statistika Komitəsinin statistik məlumatları və müxtəlif internet resursları təşkil edir.

**Tədqiqatın mədudiyyətləri:** Gömrü-tarif tənzimlənməsi xarici iqtisadi fəaliyyətin əsas tərkib hissəsi və dövlətin xarici, iqtisadi siyasəti ilə bilavasitə əlaqəli

olduğu üçün bəzi informasiyaların məxfi xarakter daşıması, gömrük-tarif tənzimlənməsi ilə bağlı informasiyaların kommersiya sirri kimi dəyərləndirilməsi aparılan araşdırlmalardabəzi çətinliklər yaratmışdır ki, bunları da tədqiqatın məhdudiyyətləri hesab etmək olar.

**Tədqiqatın elmi yeniliyi:** Dissertasiya işində irəli sürülən təklif və tövsiyyələrdən gömrük sistemində xüsusəndə gomrük-tarif tənzimlənməsində istifadə edilməsi gömrük sisteminin fəaliyyətinin səmərəliliyinin yüksəldilməsinə imkan verə bilər.

**Nəticələrin praktiki əhəmiyyəti və tətbiq sahələri.** Tədqiqat zamanı əldə edilmiş nəticələr və informasiyalar gömrük sistemində xüsusəndə gomrük-tarif tənzimlənməsində istifadə edilməsi, gömrük sisteminin fəaliyyətinin səmərəliliyinin yüksəldilməsinə imkan verə bilər. Bunlarla yanaşı, dissertasiyanın nəzəri və təcrübi müddəalarından  bu sahə ilə bağlı olan fənnlərinin tədrisindən, ixtisaslı kadrların hazırlanmasında istifadəsi mümkün ola bilər.

# I FƏSİL. QLOBALLAŞMA ŞƏRAİTİNDƏ AZƏRBAYCAN RESPUBLİKASININ GÖMRÜK-TARİF SİYASƏTİNİN NƏZƏRİ-KONSEPTSUAL ƏSASLARI.

## 1.1. Xarici iqtisadi fəaliyyətin formalaşması və onun inkişafında gömrük siyasətinin rolu və onun beynəlxalq standartlara uyğunlaşdırılması.

Dünya ölkələrindəki təcrübələrə əsaslanaraq qeyd etmək olar ki, xarici iqtisadi fəaliyyətin düzgün təmin edilməsi dünya ölkələri üçün olduqca vacibdir. Məhz bütün ölkələr də bu səbəbdən bu məsələyə xüsusi diqqət edirlər. Xarici iqtisadi fəaliyyət hesabına dövlət, həm dünya təsərrüfatına milli iqtisadiyyatının azad çıxışını təmin edir, həm də ayrı-ayrı malların lisenziyalaşdırılması, kvotalaşdırılması və idxal ixracını və digər tədbirləri həyata keçirərək iqtisadi təhlükəsizliyinin təmin olunması, milli istehsalçıların maraqlarının qorunmasını təmin edir.

Xarici iqtisadi əlaqələr dedikdə, dövlətlərarası ricarət, təsərrüfat və digər münasibətlər forması nəzərdə tutulur (Şəkərəkiyev A.Ş., və Şəkərəliyeva Z.A., 2006).

Xarici iqtisadi fəaliyyətin tənzimlənməsində, həmçinin gömrük siyasətinin həyata keçirilməsində Azərbaycan Respublikası gömrük xidməti böyük rol oynayır. Ölkə iqtisadiyyatının inkişafında, idarə edilməsində gömrük-tarif tənzimlənməsi xüsusi funksiyaya malikdir. Gömrük-tarif tənzimlənməsi iqtisadi təhlükəsizlik baxımından, bazarın qorunması baxımından, valuta ehtiyyatları və dövlət büdcəsinə gəlir gətirilməsi baxımından ölkə iqtisadyyatına birbaşa təsir edir (Şəkərəliyev A., və Şəkərəliyeva Z., 2015).

Xarici iqtisadi əlaqələrin dünya ölkələri arasında müxtəliif formaları möcvuddur. Xarici ticarət, xarici iqtisadi əlaqələr, kapitalın ixracı və yerdəyişməsi, valyuta və ödəmə hesablama əlaqələri, beynəlxalq turizm, işçi qüvvəsinin beynəlxalq miqrasiyası, beynəlxalq inteqrasiya prsesləri və s.

Ticarət xarici iqtisadi fəaliyyətin forması kimi ilk meydana gələn formadır. Tarix boyu resursların ölkələr arasında qeyri bərabər bölünməsi faktoru beynəlxalq ticarətin meydana gəlməsinə səbəb oldu. Hazırki dövrdə beynəlxalq ticarətin strukturu mühüm

göstəricidir. Xarici ticarətin strukturu ölkənin iqtisadi siyasət istiqamətləri, ölkənin iqtisadi fəaliyyət strukturu, regional mövqeyi və həmçinin xarici iqtisadi əlaqələrinin vacib vəzifələri ilə müəyyən edilir. Digər tərəfdən xarici ticarətin inkişaf parametrləri dövlətin siyasəti və iqtisadi inkişaf səviyyəsi ilə müəyyən edilir. Dövlət siyasəti ölkənin dünya iqtisadiyyatına inteqrasiya etməsinə köməklik etməlidir.

İqtisadiyyatın açqlıq səviyyəsinə dünya ölkələrində böyük əhəmiyyət verilir. İqtisadiyyatın açıqlığını göstərən göstəricilər " Fərqli növ mal və xidmət istehsalında ixracın kvotası" , " ÜDM-də ixrac kvotası" , "İstehlakda idxalın xüsusi çəkisi" göstəricilərə aid edilir.

Azərbaycan Respublikasının xarici iqtisadi fəaliyyət strategiyasının vacib prinsiplərindən biri beynəlxalq iqtisadi əməkdaşlıqda tam şəkildə iştirak etmək üçün iqtisadiyyatın açıqlığı prinsipidir.

Respublikamızın xarici əlaqələrinin formalaşması və inkişafına ölkəmizin beynəlxalq təşkilatlarda iştirak etməsi, ticarət əlaqələrində və iqtisadi sahədə əməkdaşlıqların edilməsi və əməkdaşlıqların zaman keçdikcə qüvvətlənməsi böyük təsir göstərir.

Azərbaycan müstəqillik əldə etdikdən sonra xarici iqtisadi fəaliyyət istiqamətində müstəqil şəkildə addım atma imkanına sahib oldu. SSRİ tərkibində olarkən ölkə öz şəxsi maraqları və imkanları daxilində öz ticarət əlaqələrini qurmaq imkanına malik deyildi. Müstəqillik illərində Azərbaycanın xarici iqtisadi fəaliyyətinin təhlili aydın göstərir ki, son illərdə olunan inkşaf, ticarət əlaqələrinin liberallaşması, ölkəmizin xarici təşkilatlara üzlüyü və orda iştirakı, idxal və ixracın coğrafiyası və strukturu, ölkənin iştirak etdiyi təşkilatlardan əldə etdiyi təcrübələrini öz xarici siyasətində istifadə etməsi xarici iqtisadi fəaliyyətin inkişafında müsbət meyllərə səbəb olmuşdur.

Azərbaycanın xarici ticarət əməliyyatların təsnifləşdirdikdə görmək mümkündür ki, xarici ticarət əməliyyatları 3 blokda bölünmüşdür. Bu bloklar aşağıdakılardır.

- Birinci klok
- İkinci blok

- Üçüncü blok

Birinci blokda əsas idxal-ixrac əməliyyatları, ikinci blokda reeksport və reimport əməliyyatları, üçüncü blokda isə digər xarici əməliyyatları daxil etmək olar.

Dünya miqyasında nəzər yetirdikdə görmək mümkündür ki, Respublikamızın demək olar bütün dünya ölkələri ilə əlaqələri mövcuddur. Hal hazırda xarici ticarətdə əsas xammal ixracı üstünlük təşkil edir. Buna səbəb istehsal mallarının xarici bazarda rəqabət qabiliyyətliliyi aşağı olmağıdır. İstehsal olunan mallar xarici bazardaki rəqabətə davamlı olsa o zamanhəmin malı ixrac etmək daha faydalı olur. Dünyada son illər inteqrasiya prosesləri güclənir. Bu da dünya ölkələrinin iqtisadiyyatının inkişaf səviyyəsinin artması, artıq öz ölkədaxili inkişafdan çıxaraq, dünya bazarına çıxış əldə etmək proseslərinin çoxalmağı ilə bağlıdır. Bunun da nəticəsi olaraq qeyd etmək lazımdır ki, ölkələr elə etmək laazımdır ki, dünya bazarını hazır məhsul ilə tam təmin də bilsinlər. Bu prosesin üstünlüyü də ondan ibarətdir ki, ölkə ixrac etdiyi xammaldan hazırlanan hazır məhsulu daha baha qiymətə idxal edir və burda həmin xammaldan hazırlanan hazır məhsulu özləri istehsal etsələr iqtisadiyyat üçün daha əlverişli addım olar. Buna əsas kimi məhsulun hazırlanmasında yeni iş yerlərinin mövcudluğu, bəzi xərclərin azalması göstərilə bilər və həmin hazır məhsulu dünya bazarına daha ucuz qiymətə çıxartmaq imkanı da mümkün olur.

Sənaye cəhətdəb inkişaf etmiş ölkələr dünya bazarına daha çox elm tutumlu məhsullar, texnologiya və hazır məhsullar çıxardıllar. Həmin texnologiyanı alaraq ondan istifadə edən ölkələr isə həmin texnologiya vasitəsilə onu tətbiq edərək, iqtisadiyyatını inkişaf etdirmək imkanına sahib olur.

Hal hazırda Respublikamızın xarici iqtisadi əlaqələri əsasən ən çox ixrac etdiyi mala əsasən formalaşıb. Hazırda Azərbaycan dünyada xamneft satışında, ağ neft, sürtkü yağları və s. neft məhsuları ixrac edir. Bu məhsulun dünya bazarına çıxarılması və uğurlu olması ilkin olaraq qiymət amili ilə əlaqədardır. Yeni müstəqillik illərində Heydər Əliyevin uzaqgörən siyasəti nəticasində Azərbaycana xarici investorların gəlişi

ilə Azərbaycan özündə olan təbii sərvəti dünya bazarına uğurla çıxarda bilmişdir (Şəkərəliyev A., və Şəkərəliyev Q., 2016).

Ölkələrin əsas xarici ticarət əlaqələrinin inkişaf etməsi tarix boyu ölkənin müxtəlif iqtisadi və təbii şəraiti, əlverişli cografi vəziyyəti olub. Qeyd etmək lazımdır ki, ölkəmizin tranzit ölkə olması əvvəlki zamanlarda heç də real səslənmirdi. Lakin tarix boyu böyük ipək yolunun da bu ərazidən keçməsi artıq bu torpaqların tranzit olmasına səbəb yaratdı. Hal hazırda ölkəmiz öz coğrafi mövqeyi və təbii sərvətləri nəticəsində qısa zamanda bu regionda uğurlu siyasət həyata keçirdi.

Azərbaycanın transit zonada yerləşməsi onun iqtisadi əlaqələri üçün müsbət şərait yaradır. Tranzit ölkə olması bir çox Avropa ölkələrinin və ya investorların maraqlarını cəlb edir. Həmçinin Azərbaycanda öz iqtisadi maraqlrını qoruyaraq digər ölkələrlə əlaqələrini genişləndirir, həmçinin ikitərəfli əlaqələrdən fərqli olaraq beynəlxalq təşkilatlara da qoşularaq öz mövqeyini dünya arenasında göstərir.

Xarici iqtisadi fəaliyyətdə ticarət əlaqələri istehsalın koorperasiyasına və səmərəli əmək bölgüsünə əsaslanmaslıdır. Bunun nəticəsində əmək bazarında əmək məhsuldarlığı yüksələr, istehsal xərcləri azalar və bu da ölkələr arasında mal mübadiləsinin daha da səmərəli olmasına şərait yaradar (Şəkərəliyev A., və Şəkərəliyev Q., 2016).

Azərbaycan ildən-ilə digər region və ölkələrə ixrac üçün nəzərdə tutulan malların istehsalında xüsusi çəkisini artırır, iqtisadiyyatın kompleks inkişafı və ixtisaslaşması artır, eyni zamanda ölkələrarası və ictimai əmək bölgüsü daha da dərinləşir. Əmək bölgüsünün dərinləşməsi müxtəlif sənaye sahələrinin qurulması və təbii sərvətlərin mənimsənilməsini təmin etməklə, ticarət əlaqələrinin daha çox təkmilləşdirilməsi və regionda məhsuldar qüvvələrin yerləşməsi məsələlərində güclü dəyişikliklər etmişdir.

Məhz bu səbəbdən respublikamızın xarici iqtisadi fəaliyyətinin səmərəliyinin artırılması və ticarət əlaqələrinin genişləndirilməsi üzrə aşağıdakı işlər aparıldı:

1. Ölkənin ixrac potansialı təhlil olunaraq potensialının qiymətləndirilməsi və inkişaf istiqamətlərinin müəyyən olunması,

2. İdxal üzrə təhlillər apararaq onun obyektiv tələbat həcminin müəyyənləşdirilməsi, idxal üzrə əvəzedici sahələrdə prespektivin aşkarlanması və onların inkişaf yollarının tapılması,
3. İqtisadi təhlükəsizliyin təmin edilməsi üçün bu sahədə konsepsiyanın işlənilməsi və reallaşdırması,
4. Ölkəyə xarici maliyə-kredit resurslarının cəlbi,
5. İqtisadi inteqrasiya prosesinin inkişaf etdirilməsi.

Bunu da qeyd etmək lazımdır ki, hazırda ölkənizin xarici ticarət təşkilatlarına üzvlük imkanları daha da genişlənir. Həmçinin də dövlət bu istiqamətdə böyük işlər görür. Bu görülən işlər aşağıda qeyd olunub:

1. Sərbəst bazar iqtisadiyyatına keçid,
2. İqtisadiyyatın liberallaşması,
3. Xarici iqtisadi əlaqələrin və xüsusilə də xarici ticarətin sərbəstləşməsi,
4. Gömrük sahəsində "açıq qapı" siyasətinin reallaşdırılması,
5. Müxtəlif gömrük məhdudiyyətlərinin və rüsumlarının ləğv edilməsi.

Dövlət bu istqamətdə tədbirlər həyata keçirərək öz xarici iqtisadi fəaliyyətinin formalaşmasına köməklik göstərir.

Ölkənin xarici iqtisadi fəaliyyətinin, ümumilikdə ölkə iqtisadiyyatının dirçəlməsində, investisiya siyasətində, daxili bazarın kənar təsirlərdən qorunmasında, ən əsası, dövlət gəlirlərinin formalaşması, gömrük qaydalarına qarşı mübarizənin və əsasən qaçaqmalçılıqla mübarizədə gömrük sistemi əhəmiyyətli rola malikdir. İqtisadi mənafeyin qorunması, suverənliyin və təhlükəsizliyin təmin olunması gömrük orqanlarının qarşıya qoyduğu məqsədlərdəndir. Hal hazırda gömrük sistemi iqtisadi təhlükəsizliyin və dövlətin strateji maraqlarının təminatçısına çevrilmişdir. Bu istiqamətdə də Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi bu istiqamətdə uğurlu işlər apararaq, xarici ölkələrin gömrük orqanları ilə əməkdaşlıq etmişdir.

Azərbaycan Dövlət Gömrük Komitəsi fəaliyyətini ölkə iqtisadiyyatına uyğun olaraq aparmış və bu sahədə ən mühüm qurumlardan birinə çevrilmişdir. Dövlət

Gömrük Komitəsinin apardığı gömrük siyasətinə əsasən hazırda gömrük siyasətinin uğurlu inkişaf etmiş, maddi-texniki bazası möhkəmləndirilmiş və həmçinin dövlət gəlirlərində mühüm paya sahib olmuşdur. Beləliklə Gömrük Komitəsi ölkədə baş verən iqtisadi proseslərə birbaşa təsir edərək, öz daxili siyasətini ölkə siyasəti ilə və ölkənin xarici iqtisadi fəaliyyətinə uyğun olaraq qurmuşdur.

Müasir şəraitdə dövlətin bütün iqtisadi maraqlarını və daxili bazarı qorumaq üçün gömrük siyasəti daxilində gömrük-tarif sistemindən, valuta nəzarətindən, dövlət büdcəsinin formalaşmasında iştirak edən gəlirlərin iştirak etdiyi fiskal siyasətdən uğurla istifadə edilir. Bununla bərabər narkotik vasitələrin qeyri qanuni dövriyyəsi, qaçaqmalçılıq və digər gömrük qayda pozuntularına qarşı olan tədbirlər dah da gücləndirilmiş, bu sahədə hüquqpozma faktlarının və cinayət işlərinin ilkin istintaq keyfiyyəti daha da yaxşılaşdırılmışdır. Xarici ticarət dövriyyəsinin sürətləndirilməsi və investisiya mühitinin yaxşılaşdırılması üçün qanunvericilikdə olan müəyyən şərtlər daha da genişləndirilmişdir.

Xarici ticarət fəaliyyətinin formalaşmasında və inkişafında gömrük siyasətinin tərtib etdiyi müəyyən normalar, gömrük işinin daha da inkişaf etdirilməsi beynəlxalq təcrübəyə əsasən yerinə yetirilir. Bütün bu proseslərin inkişaf yolunda olan sistemdə edilməsi dünya təcrübəsindən yararlanmadan edilməsi mümkün deyil. Belə ki, hazırda Ümumdünya Gömrük Təşkilatına inteqrasiya etmək həmin sahədə gömrük sistemi prosedurlarının sadələşdirilməsi və harmoniya edilməsi tələb edilir. Belə hal olduqda normativ-hüquqi bazaya bir daha baxılması və onun müəyyən çərçivədə təkmilləşdirilməsi zəruri hal alır. Məhz bu səbəblərdən gömrük sisteminin təkmilləşdirilməsi ilə bağlı gömrük qanunvericiliyinə müəyyən yeni fəsillər əlavə edilməlidir.

Son illərdə gömrük sistemində xarici ticarət fəaliyyətində ən böyük problemlərdən gömrükdən qanunsuz şəkildə mal keçirilməsi, gömrük qaydalarının pozulmasıdır. Hal hazırda qaçaqmalçılıq halları və ona qarşı mübarizə respublikamızla yanaşı dünya ölkələrinin mübarizə apardığı problemlərdəndir. Dünya ölkələri bu sahədə olan

nöqsanları, həmin nöqsanların araşdırılması və həlli istiqamətində işlər gedir. Dünya üzrə həmçinin nallara tətbiq olunan rüsumlar da onların qeyri qanuni üsullarla ölkə ərazisinə gətirilməsi və buradan çıxarılması hallarını artırır. Bütün belə baş verən halların qarşısını almaq üçün gömrük sistemi bu hallaa qarşı mübarizəni daha da gücləndirib, bunun üçün lazımli maddi-texniki bazanını qrulması və potensiallı kadr ehtiyyatının artırılması istiqamətində işlər görürlər.

Belə halların aldırılması üçün görülən işlərdən biri də Dövlət Gömrük Komitəsi belə halların qarşısının alınması üçün beynəlxalq çərçivədə Atom Enerjisi Üzrə Beynəlxalq Agentlik ilə danışılıb və əməkdaşlıq edilərək Texniki Proqram Çərçivəsində ionlaşdırıcı şüa mənbələrini taparaq onları aşkarlayan müasir tələblərə cavab verən stasionar radiasiya sistemi alınmış və sərhəd-keçid məntəqələrinə bu sistemin quraşdırılması üçün hazırlıq işləri görülmüşdür (Şəkərəliyev A., və Şəkərəliyev Q., 2016).

İş adamlarından və istehsalçılardan daxili bazarın qorunması və həmçinin yerli bazarın həvəsləndirilməsi üçün olunan sorğular ümumiləşdirilmiş və Azərbaycan Respublikası Tarif Şürasına alınan nəticələr təqdim olunmuşdur.

Bunlarla bərabər ixrac mallarının gömrük dəyərinə olunan nəzarəti gücləndirmək üçün gömrük qiymətləndirilməsi barədə Azərbaycan Respublikasının gönrük ərazisindən çıxarılan və bu əraziyə gətirilən malların qiymətləndirilməsi sisteminə əsasən yerli gömrük orqanlarına beynəlxalq təcrübələrə yararlanaraq yeni qaydalar hazırlamşdır. Eyni zamanda gömrük ərazisindən aparılan mallar və bu əraziyə gətirilən mallar üzərində əməliyyatların daha da sürətli olması üçün də dünya təcrübəsindən yararlanmışdır.

Gömrük-tarif sisteminin xarici iqtisadi fəaliyyətə təsirini araşdırdıqda görünür ki hazırda bu sahədə də yeniliklər edilir. Gömrük-tarif tənzimlənməsinin xarici iqtisadi fəaliyyətdə üstümlük təşkil etməsi ölkədə baş verən iqtisadi proseslərin və aparılan iqtisadi islahatların ən vacib xüsusiyyətlərindən hesab edilir. Bazar iqtisadiyyatına keçid dövrünün hazırki mərhələsində gömrük-tarif sisteminin səmərəli fəaliyyət

götərməsi ölkənin iqtisadi təhlükəsizliyinin və öz maraqlarının qorunmasının təmin edilməsində vacib amildir.

Gömrük ödənişləri gömrük siyasətinin reallaşdırılmasında əsaas vəsaitlərindən biri kimi qeyd olunur. Gömrük məcəlləsinə uyğun olaraq da qeyd olunur ki, gömrük ödənişləri müvafiq olaraq vergilər, gömrük rüsumları, dövlət rüsumları, gömrük rüsumlarıdır ( http://www.e-qanun.az/code/21, 2020).

Mövcud qanunvericiliklə uyğun aşağıda qeyd olunan gömrük ödənişləri alınır.

- Gömrük rüsumları: Aksizlər və Əlavə dəyər vergiləri,
- Gömrük rəsmiləşdirilməsinə görə alınan gömrük yığımları
- Malların saxlanc məntəqələrində qalmasına görə alınan gömrük yığımları
- Gömrük rəsmiləşdirilməsi üzrə mütəxəssislərə öz ixtisaslarına uyğun attestatlarının verilməsi və mövcud attestatların fəaliyyətinin bərpa edilməsi üçün alınan yığımlar,
- İcra hakimiyyət orqanları tərəfindən verilən icazələrə və icazələrin bərpa olunmasına görə alınan yığımlar,
- Gömrük müşaiyətlərinə görə alınan gömrük yığımları,
- Məsləhətvermə və malumatlarındırmaya görə alınan haqq,
- İlkin qərarların qəbuluna görə və s. alınan ödənişlər.

Azərbaycan Republikasının gömrük ərazisindən keçirilən mallara görə “Gömrük Tarifi Haqqında” qanuna müvafiq olaraq rüsaum ödənməlidir (http://www.e-qanun.az/code/21, 2020).

Gömrük tarifinin bu qanunla əsaslanmış məqsədləri aşağıdakılardır.

- İdxalın əmtəə strukturunu Azərbaycan Respublikası üzrə səmərəliləşdirmək,
- Malların Azərbaycan Respublikası ərazisinə gətirilməsi, çıxarılması, valyuta gəlirlərinin və xərclərini uyğun nisbətdə təmin etmək,
- Azərbaycanın gömrük ərazisinə valyuta sərvətlərinin gətirilməsi və çıxarılmasına səmərəli nəzarət etmək,

- Malların Azərbaycan Respublikasında istehlak və həmçinin istehsal strukturunda dəyişikliklər yaratmaq üçün şəraiti təmin etmək,
- Xarici rəqabətin mənfi təsirlərindən milli iqtisadiyyatı qorumaq,
- Dünya təsərrüfatına ölkə iqtsiadiyyatının səmərəli interqasiya şəraitinin yaradılması.

Gömrük rüsumu Respublikanın gömrük sərhəddindən keçirilən zaman qüvvəyə minən və tətbiq edildiyi sahə xarici ticarət dövriyyəsi malları olan dolayı tutulan haqqdır (http://www.e-qanun.az/framework/26154, 2020).

Gömrük rüsumları özündə bütün əsas vergi xüsusiyyətlərini cəmləndirir.

- Gömrük rüsumları məcburi xarakter daşıyır,
- Göstərilən xitmədtin qarşılığı kimi deyil, qarşılıqsız olaraq tutulur,
- Bu xəttdən gələn bütün gəlir dövlət büdcəsinə daxil olur və dövlət xərclərinin ödənmək məqsədilə xərclənir.

Azərbaycan respublikasının gömrük rüsumlarına nəzər yetirdikdə Advalor və spesifik gömrük rüsumlarını müəyyən etmiş olarıq.

- Advalor gömrük rüsumları dövlət sərhəddindən keçirilən malların gömrük dəyərinə uyğun faizlə hesablanır,
- Spesifik rüsum isə malın vahidinə uyğun hesablanan gömrük rüsumudur.

Dövri olaraq idxal və ixrac olunan mallar üçün isə gömrük rüsumlarının mövsümi alınması mümkündür. Belə olduğu halda həmin rüsumun qanun ilə altı aylıq tətbiq olunması mümkündür.

Milli iqtisadiyyatın mənafeyini qorumaq üçün bəzi idxal edilən mallara xüsusi olaraq da müvəqqəti dövlər rüsumunun tətbiq olunması mümkündür. Bu rüsumlar aşağıda qeyd olunub.

- Xüsusi rüsumlar
- Antidempinq rüsumları
- Kommersiya rüsumları (Şəkərəliyev A., və Şəkərəliyev Q., 2016).

Xüsusi rüsumlarının tətbiqi o hallarda mümkün olur ki, Respublika ərazisinə gətirilən malların həmin mal üzrə yerli ietshsalçılara ziyan vurduğu halda, həmin idxal edilən malın Azərbaycan dövlətinin mənafeyinə toxunan hərəkətlərə cavab kimi olduqda.

Dempinq rüsumları – Dempinq, idxal edilən malın xarici bazarda daxili bazardakı qiymətdən dəfələrlə ucuz qiymətə satılması və ya həmin məhsulu daxildə istehsal etsək belə həmin malın istehsalı üçün çəkilən xərclərdən belə aşağı qiymətə satılmasıdır. Antidempinq rüsumları isə həmin qəbilədən olan malları idxal etdikdə daxili bazara mənfi təsirləri olması səbəbi ilə həmin mala aid edilən gömrük rüsumudur. Bu rüsum vasitəsilə həmin malın idxal qiyməti daxili bazara uyğunlaşdırılır.

Ölkəyə gətirilən malların ixracı və ya istehsalı zamanı subsidiyalardan birbaşa və dolayı yolla istifadə edildikdə və bir idxal olunan mal bu qəbilə uyğun malların istehsalçılarına ziyan vurduqda və ya bu hal istehsalçıların inkişafına maneə olduqda kompensasiya rüsumları tətbiq edilir.

Gömrük rüsumları cəlb olunma obyektlərinə əsasən iki yerə - idxal və ixrac rüsumlarına ayrılır.

İdxal rüsumları ölkəni xarici rəqabətin mənfi təsirlərindən qoruduğu halda, yani proteksionist funksiyanı ( daxili bazarı qorumaq məqsədilə yerli qiymətlərlə və dünya qiymətlərin arasındakı fərqdən daha yüksək müəyyən olunan rüsumlar) yerinə yetirir. Daxili bazarı qorumaq səbəbi ilə idxal rüsumlarının artma səbəbi yerli malların rəqabət qabiliyyətliliyi müqaisədə aşağı olması ilə bağlıdır. Müstəqilliyimin ilə ilərində yeni müstəqillik əldə edən və əlində olan köhnə texnologiya ilə dünya bazarında rəqabətə hazır olmayan mallar istehsal edir. Bununla yanaşı ölkəni ixrac mallarından asılı edərək, həm milli təhlükəsizlik, həm də iqtisadi təhlükəsizlik üçün ciddi problemlər yarana bilər. Bu isə yeni müstəqil olmuş və hələ də müstəqillyini möhkəmləndirməmiş dövlət üçün ağır nəticələnə bilər. Bu səbəbdən də Azərbaycan təhlükəsizliyinin təmin olunması üçün proteksionst siyasətdən istifadə edir.

Rüsumlardan stimullaşdırıcı rüsumlar da mövcuddur. Bu rüsumlar dünya qiymətləri və yerli qiymətlərin fərqindən aşağı olur və bu rüsumlar xarici malın idxalına böyük şərait yaradır.

## 1.2. Ölkənin gömrük-tarif siyasətinin dünya iqtisadiyyatına İnteqrasiya şərtlərinin təmin olunmasında rolu və əhəmiyyəti.

Milli iqtisadiyyatın tərkib hissəsindən biri də iqtisadi təhlükəsizlikdir. O, ölkənin iqtisadi cəhətdən müstəqilliyini təmin olunmasında aparıcı rol oynayır. "İqtisadi təhlükəsizlik" anlayışı müstəqil olduqdan sonra elmi termin kimi dilimizə daxil olmuşdur. Ümumilikdə bütün sahələrdə aparılan ishalatlar iqtisadiyyata birbaşa təsir etməkdədir.

Milli təhlükəsizlik anlayışı iqtisadiyyat yarandığı gündən mövcuddur. Hər bir dövlətin əsas proritet istiqamətlərindən biri iqtisadi təhlükəsizliyinin təmin edilməsi və onun qorunub saxlanılmasına xidmət etməkdən ibarətdi. Bütün dövrlərdə iqtisadi təhlükəsizlik problemi həm daxili həm də xarici şəraitin təsirindən formalaşıb.

İqtisadi təhlükəsizlik dedikdə heç bir xarici müdaxilə olmadan öz iqtisadi inkişafının təmin olunması və təmin olunması yollarını müəyyənləşdirilməsindən ibarətdir. Ölkənin iqtisadi təhlükəsizli dedikdə elə bir istehsalat nəzərdə tutulur ki, orada əmək, zəruri maliyyə, intellektual potensialı, istehsal, onun effektiv funksiyalaşmasına təminat versin. O, birbaşa olaraq ölkənin iqtisadi və sosial inkişafı ilə bağlılıq təşkil edir. Həm daxili, həm də xarici siyasətin aparılması Azərbaycan Respublikasının ölkə təhlükəsizliyinin təmin edilməsi üçün apardığı siyasətdir.

Aşağıda qeyd olunan istiqamətlər Respublikamızın əsas iqtisadi təhlükəsizliyin təmin olunması üçün atılan addımlardır:

- Dövlətin iqtisadi potensialının müəyyənləşdirilməsi, artırılması;
- Təbii ehtiyyatların energetika sahəsində əsaslarının, tranzit imkanlarının qorunması;

- Ölkə iqtisadiyyatına daxili və xarici maliyyə ehtiyyatlarının yönəldilməsi və ondan lazımı istifadə;
- Dövlət ehtiyyatlarının və büdcə vəsaitlərinin səmərəsiz istifadəsinə yol verilməməsi;
- İqtisadiyyatda dövlət idarəetməsinin arolunun artırılması;
- Bank sisteminin inkişaf etdirilməsi və s.

(https://siyasielmler.wordpress.com/2011/02/03/azərbaycan-respublikasinin-iqtisadi-təhlukəsizliyinin-əsas-istiqaməri/, 2011)

Azərbaycan Respublikasının iqtisadi təhlükəsizliyinə nəzər yetirdikdə görərik ki, hazırkı müasir vəziyyətdə iqtisadi təhlükəsizliyin təmin olunması qənaətbəxş hesab etmək olar. Buna baxmayaraq iqtisadi təhlükəsizliyi bir sıra göstəricilər üzrə qəbul olunmuş səviyyədə müqayisə etsək çoxlu fərqləri görmək mümkün olar. Ölkədə real sektorun birtərəfli inkişaf etməsi, onun digər sektorlar üzrə aktivliyinin aşağı olmasına səbəb ola bilər. Həmçinin də ölkə iqtisadiyyatının qismən neft amilindən asılı olması, digər sahələrə olan investisiya tələbinin azalmasına gətirib çıxarar və xarici ticarətdə ixracın "monoton" olması da iqtsadiyyatın müasir vəziyyətdə təhlükəsizliyin heçdə ürəkaçan olmadığını göstərir. Lakin iqtisadi inkişafı və təhlükəsizliyi təmin etmək üçün iqtisadiyyatda həyata keçirilən bəzi struktur siyasətlər və "qeyri-neft" sektorunda sahibkarlığın, investisiya qoyuluşunun artırılması iqtisadi təhlükəsizlik üçün yaxşı meyl kimi dəyərləndirmək olar. Gələcəkdə də ölkə iqtisadiyyatının baş verən yeniliklərlə ayaqlaşması üçün yəni müasir tələblərə cavab verməsi üçün iqtisadi siyasəyin təkmilləşdirilməsi və dahada məqsədli şəkildə həyata keçirilməsi vacibdir.

İqtisadi təhlükəsizlik mili maraqların qorunması ilə yanaşı, hakimiyyət institutlarının müdafiə olunması, cəmiyyətin sosial və siyasi cəhətdən rifahının təmin edilməsi bacarığıdır. Gömrük xidmətinin fəaliyyəti bu prosesin həyata keçirilməsi üçün başlıca zəmin olduğundan gömrük siyasəti bu xismətə arxalanır. Gömrük tənzimlənməsi də həmçinin gömrük orqanlarının fəaliyyəti daxilindədir.

Milli iqtisadiyyatın inkişaf səviyyəsi, beynəlxalq rəqabət qabiliyyətliliyində daxili istehsalçıların gücündən asılı olaraq ölkənin xarici iqtisadi siyasətinin, həmçinin gömrük siyasətinin malik olduğu 4 nisbətən dəqiq kontur mövcuddur.

- Proteksionizm
- Yumşaq proteksionizm
- Yumşaq-sərbəst proteksionizm
- Sərbəst ticarət (fritrederçilik) (Şəkərəkiyev A.Ş., və Şəkərəliyeva Z.A., 2006).

Ölkədə elə bir iqtisadi təhlükəsizlik sistemi qurulmalıdır ki, o, davamlı inkişaf üçün münbit şərait yaratsın. Belə iqtisadi təhlükəsizliyin təmin olunması məqsədi ilə bəzi tədbirlər həyata keçirilməsi bu sahəyə səmərəli nəticə verə bilər.

- İqtisadiyyatın real sektorunda inkişaf siyasətinin məqsədli şəkildə edilməsi. Burada real sektorun bütün sahələrinin kompleks şəkildə inkişafı nəzərdə tutulur. Bu proqram çərçivəsində dövlət həm özü həm də yerlə və xarici sahibkarların bu sahəyə kapital qoyuluşunu sürətləndirə bilər. Sahibkarların bu  sektora cəlb olunması dövlətin düşünülmüş addımıdır. Riskli sektorlara dövlət həm ortaq, həmdə sahibkarları riskin sığortaçısı kimi kapital qoyuluşuna cəlb edə bilər.
- Daxili bazarın inkişaf etdirilməsini təmin etmək. Tələbin daxili resurslar əsasında formalaşmasına təsir göstərəcək vergi, gömrü-tarif, qiymət siyasətin həyata keçirmək. Bu siyasət vasitəsilə yerli istehsalçıların əmtəə və xidmətlərinə uyğun tələb və təklif formalaşdırmaq.
- İnnovasiya proseslərində mənfi meylləri aşkarlamaq və onları neytrallaşdırmaq, sahibkarlar, yerli və xarici invertorlar üçün bərabər istehsal şəraiti rəşkil etmək, innovasiyaların və yerli sahibkarlığın stimullaşdırılması mexaniziminin tətbiq olunması.

Ölkəmizdə bazar iqtisadiyyatının formalaşması, beynəlxalq iqtisadi əməkdaşlığın həyata keçməsi, sahibkarlığın inkişafı iqtisadiyyata birbaşa təsir edir və onun güclənməsi üçün şərait yaradır.

Azərbaycan Respublikasında iqtisadi təhlükəsizliyin təmin edilməsində Dövlət Gömrük Komitəsi bilavasitə məşğul olur.  Hətta dünya təcrübəsinə nəzər salsaq görərik ki, bir çox milli iqtisadiyyatlarda bu qurum iqtisadi təhlükəsizliyin əsas aparıcı qüvvəsidir.

Ölkəmizin iqtisadi təhlükəsizliyinin təmin edilməsində də Gömrük Komitəsinin çox böyük əhəmiyyəti vardır. Gömrük Komitəsi iqtisqadi təhlükəsizliyə ən başlıca təsir edən qurumlardandır. Müstəqilliyin əvvəlində aparılan islahatlar bu sahədə də öz əksin tapmışdır. Ölkəmiz müstəqil olduqdan 3 ay sonra Gömrük Komitəsinin əsası qoyuldu. Ümumilli liderimiz Heydər Əliyevin uzaqgörən siyasəti nəticəsində yaradılam Komitənin əsas məqsədi ölkəmizin iqtisadi təhlükəsizliyinin təmin edilməsi idi.

İqtisadiyyatımızda illər keçdikcə artan ticari əlaqələr, idxal-ixrac əməliyyatları gömrük qanunvericiliyinin təkmilləşdirilməsinə səbəb olub.

İqtisadi təhlükəsizlik özlüyündə ölkə resurslarının qorunması, balanslaşdırılmış və dinamik inkişafın, sosial inkişafın, iqtisadi təhlükəsiziyin təmin olunmasında iştirak edən iqtisadi, siyasi və hüquqi kompleks şərtləri əhatə edir. Bu şərtlərdə birində yaranacaq problem, iqtisadi təhlükəsizliyin pozulması ilə nəticələnir. Bu səbəbdən də, iqtisadi təhlükəsizliyin təmin olunması üçün ölkənin resursları (bura həm ərzaq, həm enerji və digər mallar da daxildi) nəzarətdə saxlanmalı, bununla yanaşı ekologiyanın qorunması kimi mühüm məsələlərə diqqət edilməlidir. Əks halda ekoloji vəziyyətin dəyişməsi, ərzaq probleminin yaranması iqtisadiyyatda təhlükə riskinin artmasına səbəb olacaq.

Ölkəmizin hazırkı gömrük siyasəti milli iqtisadiyyatın inkişafının təmin edilməsi və öklədaxili bazarın beynəqxalq standartlar normasına uyğunlaşması kimi məsələlər üzərində hazırlanmışdır.

Beynəlxalq təhlükəsizlikdə qarşıya bir neçə risklər çıxır. İqtisadi təhlükəsizlikdə çıxan belə risklərin aradan qaladırılmasında əsas rolu gömrük xidməti oynayır.

Yuxarı sətrlərdə qeyd etdiyimiz kimi, digər ölkələrdə də iqtisadi təhlükəsiziyin qorunmasında gömrük orqanlarının rolu böyük olur. Hal hazırda dünya ölkələrində

gedən soyuq müharibələrin əsas silahı iqtisadiyyatdır. Belə bir dövrdə iqtisadi təhlükəsizliyin təmin edilməsi hər bir ölkə üçün proritet hədəfdir. Ölkələr bir birini yıxmaq üçün digərinin iqtisadiyyatını zədələyir.

Gömrük orqanlarının iqtisadi təhlükəsizliyə təsir edən imkanlarından biri də ölkəyə ixrac olunan mallara nəzarət etməsidir. Həmçinin də idxal mallarına da nəzarət edir. Bu isə o deməkdir ki, gömrük orqanları ölkəyə idxal, ixrac olunan mallara nəzarət edərək, ölkə iqtisadiyyatı üçün təhlükəli malların idxal ixracına maneə ola bilər. Gəmrük sahəsində belə bir söz var " istənilən ölkəyə, istənilən malı göndərmək mümkün deyil". Ölkələr iqtisadi təhlükəsizlik üçün təhdid hiss etdikdə idxal-ixrac əməliyyatlarına birbaşa müdaxilə edə bilirlər.

Dövlət Gömrük Komitəsinin əsasnaməsində 3.1.2 qanununa əsasən "qanunvericilikdə nəzərdə tutulmuş qaydada Azərbaycan Respublikasının iqtisadi və milli təhlükəsizliyini təmin etmək" komitənin vəzifələrindəndir (http://www.e-qanun.az/framework/23659 – 2020).

Gömrük orqanları tərəfindən idxal və ixrac olunan mallara gömrük rüsumu tətbiq edilir. Bu rüsumun tətbiqinin əsas məqsədi iqtisadi təhlükəsizliyin və daxili bazarın qorunmasına yönəlib. İnkişaf etmiş ölkələrdə gömrük rüsumlarının dərəcələri yuxarı deyil. İnkişaf etmiş ölkələrdə gömrük rüsumlarının dərəcələrinin aşağı olmasının səbəbi daxili bazarda rəqabətin yüksək olması, həmçinin istehsal etdiyi məhsul da rəqabətqabiliyyətli olduğundan, bundan əlavə həmin məhsulun ixracının stimullaşdırılması üçün də gömrük rüsumlarının artırılmasına ehtiyyac qalmır.

Bundan da belə bir nəticə çıxır ki, hər bi ölkənin iqtsadi təhlüksizliyini və inkişafını gömrük rüsumları təmin edir.

İqtisadi təhlükəsizliyin təmin etmək üçün ənənəvi idxal rüsumları hər bir ölkənin iqtisadi marağına uyğun şəkildə təyin olunur. İdxal rüsumları öz növbəsində xarici təziqlərdən qorunmaq, süni qiymət artımının qarşısını kəsmək, daxili mənafelərin təmin olunmasına həyata keçirir. İnkişaf etmiş ölkələrə nəzər yetirdikdə idxal rüsumları əsas məqsədi dövlət gəlirlərinin artırılması, bundan əlavə müxtəlif xərclərin ödənilməsini

təmin etməkdir. Gömrük rüsumlarının yığılması sadə olmasına baxmayaraq, onun yığılması zamanı dövlət sərhəddindən keçirilən əmttədən asılı olaraq bir sıra çətinliklər ortaya çıxır. Gömrük rüsumları qiymət mexanizmləri əsasında müəyyən edilərkən həm ölkənin iqtisadi təhlükəsizliyini təmin edir, həm də ölkədəki istehsal-satış sferasinda olan xarici təsirin gücünü azaldır. Gömrük-qiymət mexanizmləri ölkələrin inkişaf səviyyəsinə, məqsədlərinə əsasən dəyişilir. Sənaye cəhhətdən inkişaf etmiş ölkələrdə əsas önəmli olan, bu vasitə ilə yerli istehlakçıların daxili bazarlarda tələbinə uyğun olan qiymətləndirmə mexanizmindən istifadə etmək və özlərinin iqtisadi təhlükəsizliyini qorumaqdır. İxracat qiymətinin müəyyən olunması idxalat qiymətinə nisbəti əsasında olur. Bunu nəzərə alaraq da iqtisadi şəraitdən asılı olaraq qiymətləndirmə mexanizmi bazar münasibətlərinə cavab verərək çevik sürtdə tənzimlənir. Bu amil əsas ölkənin iqtisadi inkişafının qiymətləndirilməsinin düzgün aparılmasından və iqtisadi inkişafın təhlükəsizliyini müəyyən edən qanunvericilik bazasının dünya standartlarına uyğun olmasından asılıdır.

Hər bir iqtisadi sistemin fəaliyyətinin normal təmin olunması üçün dövlət vacib rol oynayır. Hər hansı bir iqtisadi sistemdə bazar çatışmazlığı yarandığı təqdirdə dövlət müdaxiləsi şərtlənir. Ümumiyyətcə bu çatışmazlıqlar, işsizliyin, haqsız rəqabətin, inflyasiya, sərvətlərin, bazarın məhsulların istehsalında lazımı qədər maraqlı olmaması, makro-iqtisadi qeyri sabitlik, region və ölkələrin kəskin diferensiasiyası, sosial ədalətsizlik probleminə bazarın biganə bazar tərəfindən yanaşan biganəlik xarici ticarət əlaqələrində özünü biruzə verir. Belə ki, bu faktorlar xarici ticarət əlaqələrini dövlətlərarası səviyyədə pozur.

Hazırda dünya təcrübəsinə nəzər yetirsək görərik ki, hal hazırda sırf bazar iqtisadiyyatı deyil də, qarışıq bazar iqtisadiyyatı çoxluq təşkil etməkdədir. İqtisadiyyatın dövlət tənzimlənməsi dedikdə, dövlət bəri üsullarla iqtisadiyyata müdaxilə etmək və iqtisadiyyata birbaşa təsir etməkdədir. İqtisadiyyatın planlaşdrılması, praqnozlaşdırılması, maliyyələşdirilməsi, vergiqoyma, büdcə təminatı, kreditləşmə, gömrük tənzimləmələri kimi prinsiplər dövlətin iqtisadiyyata müdaxiləsini

əks etdirir. Bu müdaxilələrin əsas prinsipi dövlətin iqtisadi təhlükəsizliyi təmin etməkdir.

Dövlət bazar uğrunda digər dövlətlər və ya iqtisadi bloklarla mübarizə aparır. Bu mübarizədə dövlət rəqabət qabiliyyətliliyini artırmaq üçün xarici ticarət siyasəti alətindən istifadə edir. Bu siyasət müxtəlif istiqamətlərə yönləndirilə bilir.

1. Idxal-ixrac axınlarının tənzimlənməsi;
2. Xairici ticarət strukturunun səmərəliləşdirilməsi;
3. Ölkənin səmərəli şəkildə BƏB ə qoşulması;
4. Milli bazarın zəruri maddi – texniki ehtiyatlarla təmininə.
5. İdxal ixrac məhsullarına qiymət qoyuluşunun qarşılıqlı nisbətinin tənzimlənməsi.

Xarici ticarət siyasəti bu siyasətlərə yönləndirilə bilər.

Dövlət səxiyyəli bu tənzimləmə vasitələrinin tətbiqi iki istiqamətdə oluna bilər. Himayəçilik (proteksionizm) və liberallaşma (Free Trading) siyasətində.

Azad ticarət zonası vaxt keçdikdə öz zonasını daha da genişləndirir. Məhz bu siyasət nəticəsində məhsulların ölkəyə gətirilməsi və çıxarılması zamanı bütün maneələr aradan qaxır. Xarici rəqabətdə milli bazarın müdafiəsi məsələsini proteksionist siyasət ortaya qoyur. Bu istiqamətdə müdafiyə meyyəari əsas bu istiqamətdə keçirilir.

1. Rəqib aktivlirinin milli bazarda buraxılmasına qadağa,
2. Bəzi məhdudiyyətlərin qoyulması,
3. Məhsulun istehsal xərclərinda ixtisarların aparılması,
4. Milli qiymətlərin xarici mal və ya xidmətdə artırılması siyasəti.

Nəzarət olunan tranzin axınlarının müəyyən ərazi boyunca yoxlanılmasını həyata keçirən ticarət tənzimləmələri, ölkəyə malların gətirilməsi və ölkədən aparılması ticarət vasitələri arasında əsas rolu oynayır. Dövlət bu hesabla gömrük rüsumu adlanan vergi toplayır. Belə halda ticarət proteksionizminin əsas vasitəsinə əsas məqsədi dövlətin

büdcə gəlirlərinin artması olan, fiskal adlanan, xarici malların ölkəyə gətirilməsində maneə yaratmaq, nüfuz üstünlüyünün qarşısını almaq xidmət edir.

Ölkədə mövcud olan xarici ticarət konsepsiyasınə nəzərdən keçirərkən bütövlükdə iqtisadi təhlükəsizlik konsepsiyasının bir tərkib elementi kimi baxılmalı və formalaşdırılmalıdır.

Dövlətin əsas hədəflərindən biri də iqtisadi təhlükəsizlik sisteminin güclü şəkildə qurulması və möhkəmləndirilməsi. Bu isə birbaşa olaraq ticarətin təşkili və inkişafından asılıdır. Belə ki, iqtisadi münasibətlərin dərinləşməkdə olması, həm ölkənin iqtisadi təhlükəsizlik konsepsiyasında, həmçinin xarici ticarətdə köklü dəyişikliklər tələb edir. Dünya təcrübəsinə nəzər yetirdikdə ölkələrin inkişaf yollarının seçilməsi məsələləsi son dərəcə mühüm olmasını görmək olar. Ümumiyyətlə, milli iqtisadiyyatın 3 əsas modeli varki, onlar xarici amillərlə sıx bağlı əlaqəsi və qarşılıqlı asılılığı ilə fərqləndirilir.

1. İxrac yönümlü iqtisadiyyatın yüksəldilməsinə planlaşdırılmış inkişaf modeli;
2. İdxal əvəzləyici istehsal sahələrinin inkişaf modeli;
3. İqtisadi inteqrasiya modeli.

Xarici ticarət konsepsiyasının bu modellərdən birinin seçilməsi zamanı tam formalaşdırılması deməkdir.

### 1.3. Gömrük-tarif tənzimlənməsinin tətbiqinin nəzəri əsasları və dünya təcrübəsi.

Xarici ticarətin nəzəriyyələrinə nəzər yetirdikdə ilk olaraq merkantilizm nəzəriyyəsinə nəzər salmaq olar. Merkantilizm nəzəriyyəsinin nümayəndələri Tomas Meni, Çarlz Davenantı, Antuan Monkretyeni, Vilyam Stafforu və digərlərini göstərmnək olar. Məhz merkantilizm nəzəriyyəsinə əsasən iqtisadi sistem istehsal, kənd təsərrüfatı sektorundan və xarici koloniyalardan ibarət üç sektordan ibarətdir. Merkantilizm nəzəriyyəsinə görə əmək istehsalın ən əsas amili, tacirlər isə iqtisadi

sistemin ən vacib subyekti idi. Bu nəzəriyyənin mövcud olduğu dövrlər feodalizmin dağılması və mill dövlətlərin yaranması və möhkəmlənməsi dövrüdür.

Merkantilistlər hesab edirlər ki, ölkənin əsas sərvəti qızıl və qiymətli metallara əsas götürülməlidir. Onlar düşünürlər ki, xarici ticarətdə qızıl ehtiyyatının artımı dövlətin önündə duran əsas vəzifəsi olmalıdır. Onlar qiymətli metallar və əsasən də qızılı ölkə sərvətinin qaynağı kimi görürlər. Həmçinin onlar düşünürlər ki, ticarətdə bir tərəf qazandığı halda digər tərəf mütləq uduzur.

Lakin klassik nəzəriyyənin banisi Adan Smit fikirlərə əks fikirlər söyləmişdir. Klassik məktəbin banisi olaraq millətin rifahını onun qızılında yox əmtəə və xidmət istehsal etmə qabiliyyətində olduğunu söylədi. Həmçinin "ticarətdə bir tərəf qazandığı halda digər tərəf mütləq uduzur" fikrini də əsassız sayaraq ticarətdə hər iki tərəfin qazana biləcəyi fikrinfə idi.

Adam Smit öz mütləq üstünlüklər nəzəriyyəsinə əsasən qeyd edir ki, ölkələr digər ölkəyə nisbətən daha az xərclə istehsal etdiyi əmtəə və xidməti ixrac edir, digər ölkənin daha az xərclər istehsal etdiyi əmtəə və xidməti idxal edir. Bu halda hər iki dövlət qazanır.

Adam Smit qeyd edir ki, dövlətlər iqtisadiyyata qarişmamalıdır. Bunun əvəzinə azad ticarət rejminin tərəfdarı olmalıdırlar. Millətlər isə hər hansı mal və xidmətin istehsalında mütləq üstünlüyə malikdirsə o sahədə ixtisaslaşmalı və o malın ixracı ilə maraqlanmalıdırlar. İdxalında isə digər ölkənin üstünlüyə malik olduğu malı idxal etməlidirlər.

Lakin Adam Smitin bu nəzəriyyəsi bir suala cavab verə bilmir. Həmin sual "əgər bir ölkə hər hansı bir mal və ya xidmətin istehsalında ixtisaslaşmayıbsa, digər ölkələrlə ticarət əlaqələri qura bilməzmi?" - sualı idi

Adam Smitdən sonra David Rikardo mütləq "üstünlüklər nəzəriyyəsini" daha da təkilləşdirərək "müqaisəli üstünlüklər" nəzəriyyəsini hazırladı. Bu nəzəriyyəyə əsasən ölkələr digər ölkələrə əsasən daha az xərclə istehsal etdiyi mal və xidməti istehsal edərlərsə hər iki tərəf üçün bu ticarət xeyirli olar.

Adam Smitin və David Rikardonun nəzəriyyələrinin fərqi isə ondan ibarətdir ki, Adam Smit qeyd edir ki əgər iki dövlət iki mal üzərində müqaisə olunurlarsa və hər iki malı A ölkəsi daha az xərclə istehsal edirsə onda iki malı da həmin ölkə istehsal etməlidir. Burda artıq bayaq qeyd edilən sual öz cavabın tapmır. David Rikardo müqayisəli üstünlüklər nəzəriyyəsinə əsasən isə iki ölkədən biri hər iki mal və ya xdməti digərinə nisbətən daha az xərclə istehsal etsə belə özü üçün yalnız bir mal və ya xidmət istehsalında ixtisaslaşır və digər malı digər ölkə istehsal edir. Bunda artıq hər iki ölkə xarici ticarətdə iştirak edir və hər iki tərəf udur.

Digər nəzəri-metodoloji müddəalara nəzər yetirsək burdakı fikirlərlə üstünlüklər nəzəriyyəsinin fikirləri üst üstə dümür.

Jan Batist Seyin banisi olduğu istehsal amilləri nəzəriyyəsində ticarətin əsasını əmək, torpaq və kapital göstərilir. Onun fikrinə əsasən, istehsal xərclərini qeyd olunan amillərin bazar qiyməti formalaşdırır. Həmçinin bu qiymətlər istehsal amillərini qiymətləndirməyə də imkan verir.

XIX əsrdə klassik məktəbin davamçıları olan neoklassikçilər beynəlxalq ticarət üçün yeni bir izah təqdim etdilər. Həmin dövrdə əmək dəyər nəzəriyyəsini istehsal amilləri nəzəriyyəsi sıxışdırdığından, bu nəzəriyyə vasitəsilə beynəlxalq ticarəti izah etdilər.

Bu nəzəriyyənin əsas ana fikri belədir ki, əgər bir ölkə hər hansı bir istehsal amili ilə zəngindirsə, həmin amildən istehsalda daha çox istifadə etdiyi malı istehsalında müqaisəli üstünlük əldə edər. Buda həmin malı daha ucuz istehsal edib və bazarda həmin mal üzrə ixtisaslaşmağa səbəb olar.

Beynəlxalq ticarətdə tarazlıq modeli də mövcuddur ki, neoklassikçilərin beynəlxalq ticarət nəzəriyyəsindən danışarkən bundan mütləq şəkildəm qeyd olunmaslıdır. Beynəlxalq ticarət nəzəriyyələrindən danışılarkən əmtəə və istehsal amilləri nəzərə alınırdı. Lakin bazarda bu amillərlə birgə bazarda tələb amili də önəmli rol oynayır. Dünya bazarında əmtəə təklifi əmtəəyə olan tələbdən sonra formalaşdığından neoklassik iqtisadçıları həm tələbə, həm də təklifə diqqət yetirildi.

Beynəlxalq ticarətin standart modeli neoklassik iqtisadçıların bir çoxu tərəfdən qeyd olunub. Bunlar irland və avstriya mənşəli amerikan iqtisadçıları Frensis Ecuort və Qottfrid Haberlerdir.

Hal hazırda Azərbaycanda dünya təsərrüfatına inteqrasiya prosesi sürətli şəkildə inkişaf edir. Bunun əsas göstəricisi kimi xarici siyasət zamanı inteqrasiyanın sürətli olunamsının əsas hədəflərdən biri olmasını göstərmək olar.

Hal hazırda edilmiş təhlilə əsasən dünya təsərrüfatına inteqrasiyanın əsas iki istiqaməti vardır. Bunlardan ilkin istiqamət dünyada qloballaşmanını daha da iri hacmdə olması, dünya təsərrüfatının malik olduğu vahidliyin daha da gücləndiyi görsənir. İkinci istiqamət isə əsasən ölkələrin iqtisadi yaxınlaşması, həmçinin onların bu yaxınlığı daxili iqtisadiyyatlarının da inkişafına birbaşa təsir göstərir.

Dövlətlərin iqtisadi artımının qarşılıqlı olması, mikro və makro səviyyədə inkeqrasiyasnın inkişafı, həmçinin qapalı milli təsərrüfatdan müəyyən dövr ərzində açıq iqtisadiyyata keçməsi hazırki dövrün əsas xarakteristikaları kimi qeyd olunur.

Beynəlxalq iqtisadi inteqrasiyanın inkişafında əsas məqsəd regiondakı ticarət siyasətinin daha düzgün həyata keçirilməsi, iqtisadiyyatda olan üstünlüklərdən istifadə edilməsi, struktur cəhətdən iqtisadiyyatın yenidən qurulmasına yardım edilməsi, milli iqtisadiyyatın gücləndirilməsi, gömrük tarif münasibətlərinin qarşılıqlı tənzimlənməsi və gənc sahibkarlığın inkişaf etdirilməsindən ibarətdir.

İqtisadi ittifaqların yaradılması, inteqrasiya proseslərində müəyyənləşən ən yüksək səviyyədir. Belə olduğu halda ümumi gömrük tarifinin tətbiq edilməsi, istehsal faktorlarının və malların sərbəst hərəkəti ilə bərabər, makroiqtisadi siyasətin əlaqələndirilməsi nisbətən daha vacib sahələrdə (pul, büdcə, valuta və s.) qanunvericiliyin vahid şəkilə salınmasını nəzərdə tutur. Bu halda fərqli dövlətlərin hökümətləri səviyyəsində reallaşan bəzi fünksiyalar dövlət tərəfindən qurulmuş orqanlara verilir.

Gömrük ittifaqlarının yaranması nəzəriyyəsi iqtisad elmində böyük töhvələri olmuş Kanada alimi Vaynerin adı ilə bağlıdır. Vayner gömrük ittifaqı nəzəriyyəsində

statistik və dinamik olmaqla iki növ səmərəliyi qeyd edib. Statistik səmərəlik dedikdə gömrük ittifaqının yaranmasından sonra nəticələnən iqtisadi nəticələr nəzərdə tutulur. Dinamik səmərilik dedikdə isə gömrük ittifaqlarının sormalaşmasından daha sonrakı mərhələdə nəticələnən iqtisadi proseslər nəzərdə tutulur.

Beynəlxalq iqtisadi inteqrasiyanın ən geniş yayılmış forması gömrük ittifaqlarıdır. Gömrük ittifaqların həmçinin iki və ikidən daha çox ölkələrin qarşılıqlı münasibətləri çərçivəsində müəyyən olunur. Həmin ölkələr aralarında gömrük rüsumlarını belə aradan qaldırır. QATT-ın 14-cü maddəsində gömrük ittifaqı daxilində, dövlətlər arasında gömrük rüsumunun ləğvi və gömrük ittifaqına uyğun olaraq vahid gömrük tarifinin müəyyən olunması bildirilib. Gömrük rüsumlarında olunan güzəştlərə görə gömrük ittifaqları və azad iqtisadi zonalar arasında fərqlər mövcuddur. Əsas fərq gazaömrük ittifaqına nisbətdə azadiqtisadi zonalarda qeyri-tarif baryerlərinin aradan qaldırılması və gömrük rüsumlarının aşağı salınması tədricən həyata keçirilir. Son nəticə olaraq azad iqtisadi zonalar rüsumsuz ticarəti təmin edir. Gömrük ittifaqlarında isə üzv ölkələr arasında rüsumsuz ticarətlə yanaşı ittifaqa daxil (Şəkərəliyev A., və Şəkərəliyeva Z., 2015).

Gömrük ittifaqlarına üzv olan ölkələrin istehlak və istehsal strukturlarında ciddi dəyişikliklər müşahidə olunur. Həyata keçirilən vahid xarici ticarət siyasəti, gömrük ittifaqı daxilində baş verən inteqrasiya proseslərin inkişaf edilməsinə ciddi təsir göstərir. Təcrübədə belə iqtisadi proseslərin daxili əmtəə və xidmət bazarına daha ərverişli təsir etməsi və inkişafında böyük rol oynaması nəzərə çarpır.

İnteqrasiya proseslərinin formaları əhatə etdiyi müddətə görə bir neçə mərhələ üzrə bölünür. 1958-1968-cı illər aralığında Azad ticarət zonası mərhələsi, 1968-1976-cı illərdə Gömrük ittifaqı mərhələsi, 1987-1992-ci illərdə Ümumi bazar mərhələsi, 1993-cü ildən sonra, hazırki dövrə qədər isə İqtisadi ittifaq mərhələsi adlanır. Avropa İttifaqı daxilində inteqrasiya prosesinin daha vacib mahiyyəti ümumi bazarın yaradılması ilə baş verdi.  Ümumi bazar 1992-ci ilin sonlarında yarandı.

Hal hazırda dünya təcrübəsinə əsasən inteqrasiya qrupları arasında ən yüksək nüfuzlusu Avropa İttifaqıdır. Hal hazırda Aİ iqtisadi ittifaqın inkişaf mərhələsini yaşayır. Əsas inteqrasiya proseslərini uğurla keçmiş, və təkmilləşmişdir. Avropa İttifaqı çərçivəsində ümumi gömrük tarifi bazası daxilində xarici siyasəti yaradılır. Bu siyasətin yaradılmasında malların və istehsal faktorlarının daha da sərbəst şəkildə hərəkəti təmin edilib.

Avropa İttifaqına inteqrasiya Azərbaycan Respublikası üçün daim proritet hədəflərdən olmuşdur. İlkin münasibətlər 1996-cı ildə yaranmışdır. “Tərəfdaşlıq və Əməkdaşlıq Tarifi” saziş AR ilə Aİ arasında ilk bağlanmış saziş olaraq qeyd edilir. Bu sazişin 1996-cı ildə bağlanmasına baxmayaraq 1999-cu ildən qüvvəyə minmişdir. Əməkdaşlığın əsas əhatə etdiyi sahələr isə qanunvericilik, ticarət, sərmayə, elm və mədəniyyət və siyasi dialoqdur. Bu sazişdən başlayaraq Azərbaycana Avropa İttifaqı tərəfindən olunan yardımın həcmi və miqyası tədricən artmağa başladı. Bu inteqrasiya proseslərinin davamı olaraq, 1998-ci ildə Azərbaycana Avropa İttifaqı xüsusi elçi təqdim etmişdir.

Hal hazırda Aİ və AR arasında ticarət əlaqələrini Tərəfdaşlıq və Əməkdaşlıq Tarifi tərəfindən tənzimlənir. Azərbaycanın ticarət tərəfdaşları arasında Avropa İttifaqı ilk yeri tutur. Aİ ilə əməkdaşlıq çərçivəsində Azərbaycan mallarının Avropa İttifaqı bazarında daha güzəştli tariflərlə idxalına yardım edəcək rejimdən faydalanmışdır. Bu rejim Ümumiləşdirilmiş Ticarət Üstünlükləri rejmi adlandırılır.

2018-2020-ci illər çərçicəsində Avropa İttifaqı və Azərbaycan arasında tərəfdaşlıq prioritetləri müəyyənləşdirilmişdir. Bu planlamada hər bir tərəfin ehtiyacları nəzərə alınıb. Azərbaycan Respublikası üçün belə təşkilatlarla müqavilələr, əməkdaşlıqlar dünya təcrübəsinə yiyələnmək və ondan faydalanmaq üçün yaxşı şərait yaradır.

Dünya təcrübəsinə nəzər saldıqda Aİ tarixin baxdıqda 1992-ci ildə Polşa, Slovakiya, Çeciya və Macarıstanın iştirak etdiyi Mərkəzi Avropa sazişi imzalanmışdır. Bu Mərkəzi Avropa Sazişi iştirak edən dövlətlər arasında azad ticarət zonası barədə

olmuşdur. Bu birliyə sonradan bir neçə ölkələr də qoşulmuşdur. Bu ölkələrə Bolqarıstan, Rumıniya aid edilir.

Bu sazişə əsasən kənd təsərrüfatı və sənaye sahəsində gömrük rüsumlarının təədricən ləğvi nəzərdə tutulmuşdur. Həmçinin qeyri-tarif məhdudiyyətləti də aradan qaldırılması qeyd olunmuşdur. Saziş Standstill prinsipinə əsaslanmışdır. Bu isə o deməkdir ki, tərəflər birtərəfli qaydada nə yeni ticarət maneələri müəyyən edə bilməzlər, nə də gömrük rüsumlarını qaldıra bilməzlər.

Azərbaycanın ÜTT ilə əməkdaşlıq istəyi müstəqilliyin ilk illərindən mövcuddur. İlk dəfə Azərbaycan 1997-ci ildə ÜTT katibliyinə ÜTT-yə üzv olma nittəyini bildirmişdir (https://www.economy.gov.az/article/vto/21561, 2012).

Azərbaycan bu dövr ərzində üzvlük üçün çoxtərəfli danışıqlarını davam etdirir. Hər bir danışığı zamanı da müvafiq sənədlər qəbul edilir.

ÜTT-yə qəbul Azərbaycan qanunvericiliyi ilə birbaşa bağlıdır. ÜTT-tə üzv olmaq üçün qanunvericiliyiyi təkmilləşdirmək vacib amildir. Hazırda intellektual mülkiyyət, tinvestisiya, tənzimlənmə sahəsində elə qanunlar mövcuddur ki, onlar əsasən ÜTT və digər beynəlxalq normalara cavab vermirlər

Qanunvericilikdən əlaqə iqtisadi sahədə də şaffaflıq, ölkənin bir sahədə ixtisaslaşmaması önəmlidir. Həmçinin sənaye inkişafı da vacib hədəflərdəndir.

Sənayenin ən zəif, həmçinin ixrac potensiallı sahələri müəyyənləşdirməli və kreditlər, vergi güzəştləri, subsidiyalar, gömrük rüsumlarından istifadə olunaraq bu problemlər aradan qaldırılmalıdır. Gömrük sisteminin ÜTT ilə əlaqəsi olduqca güclüdür. Gömrük sisteminin ölkənin xarici ticarətində olan rolu ÜTT ilə olan əməkdaşlığa da öz təsirin göstərir. Lakin sənayenin inkişafın yalnız bir istiqamətdə, gömrük rüsumları ilə təmin etmək mümkünsüzdür. Bu sahədə iqtisadi təhlillər aparılmalı və bütün təsir edən sahələrdə müvafiq yeniliklər olunmalıdır.

Şimali Amerika regionunda əsas inteqrasiya proseslərinin tənzimlənməsində xüsusi yeri 1992-ci ildə yaradılmış NAFTA tutur. Kanada, ABŞ, və Meksika arasında yaradılmış bu azad ticarət zonasının əsas məqsədi qonşu dövlətlər arasında iqtisadi

münasibətlərin tənzimlənməsi olmuşdur. Gömrük sahəsində NAFTA-nın yaradılması gömrük baryerlərinin aradan qaldırılmasına yol açmışdır. Gömrük rüsumlarının aradan qaldırılması dövlətlər arasında kapital qoyuluşunu daha da rüətləndirdi, baryerlərin aradan qalxmasına yardımçı oldu.

Dünyanı bürüyən inteqrasiya prosesləri Asiya-Sakit Okean regionuna da təsirsiz ötüşmür. Asiya-Sakit Okean regionu Yaponiya və Çin kimi inkişaf etmiş ölkələrlə bərabər Cənubi Koreya, Tayvan, Sinqapur və Honkonq kimi yeni sənaye ölkələrini - ASEAN-ı özündə birləşdirir.

ASEAN 1967-ci ildə formalaşmış, Tailandı, Filippini, İndoneziyanı, Malayziyanı, Bruneyi, Sinqapuru və Vyetnamı özümdə əhatə edir. Bundan əlavə xüsusi olaraq Asiya-Sakit Okean birliyi də qeyd edilə bilər. Bu birlik 1989-cu ildə yaranıb. Yeni formalaşma mərhələsin uğurla keçməsinə baxmayaraq, inteqrasiya birliyi daxilində maneələrin və gömrükdən azad olunan bir azad ticarət zonası yaradılması 2020-ci ilin sonlarından nəzərdə tutulur.

Hazırki vəziyyətdə dünya ölkələri üçün qtisadi inteqrasiyanın vacibliyi, iqtisadiyyata edilən müsbət təsirlərin nəticələri hər bir ölkənin marağındadır. Azərbaycanın da içində olduğu MDB ( Müstəqil Dövlətlər Birliyi) hazırda üzv ölkələri arasında ticarət əlaqələrinin inkişafında böyük rol oynayır.

Gömrük siyasəti daxilində MDB-də imzalanmış gömrük siyasətinin prinsipləri barədə saziş və gömrük ittifaqı formalaşmışdır. Bunlardan əlavə gömrük siyasətində atılan addımlara Tranzit yüklərin rəsmiləşdirilməsi, Tranzit qaydaları haqqında razılaşmalar da mövcuddur. Gömrük sərdəhhində gömrük rəsmiləşdirmə şərtlərinin sadələşdirilməsi və unifikasiyası barədə razılıq imzalanmışdır.

MDB daxilində əməkdaşlığın fərli istiqamətlərindən daxışılan zaman MDB daxilində Gömrük İttifaqı və bununla yanaşı vahid iqtisadi məkanın yaradılması üzrə bir sıra addımların atılması vacibliyi qeyd edilir. Bu adıımlardan Gömrük İttifaqı orqanlarının işgüzarlığının artırılmasını misal çəkmək olar.

Azərbaycan da öz növbəsində MDB daxilindəqəbul edilən qərarların iştirakçısıdır. Bunlara misal olaraq, MDB ölkələrinə aid edilən "Müstəqil Dövlətlər Birliyində iştirak edən dövlətlərin gömrük qanunvericiliyinin əsasları", azad iqtisadi zonanın MDB daxilində yaradılması haqqında Konvensiya. Bu konvensiya daha əvvəldən yardılsa da Azərbaycan bu konvensiyaya 2 il sonra qoşulmuşdur.

Bu istiqamətlərdə Azərbaycanın indi də qərarlı işləri davam edir. Digər ölkələrlə həm regional, həm də ikitərəfli münasibətlər quraraq, gömrük tarif sistemini inkişaf etdirir və təkmilləşdirir. Bu istiqamətdə görülən işlərdən gömrük rüsumlarınınaşağı salınması inteqrasiya istiqamətində mühüm işlərdəndir.

DGK iqtisadi islahatlar dövründə beynəlxalq əlaqələri gücləndirmiş, genişləndirmiş və başqa bir səviyyədə keyfiyyət nümaiş etdirmişdir. DGK-nin atdığı addımlara əsasən Ümumdünya Gömrük Təşkilatı ilə aralarındakı əməkdaşlığı qeyd etmək olar. 2003-cü ildə imzalanan niyyət protokolu beynəlxalq təşkilatlarla əlaqələrin daha da genişləndirilməsini görmək mümkündür. Həmçinin Brüsseldə yerləşən ÜGT-nın qamətgahı qarşısında qoyulan Dədə Qorqud heykəlini bu əlaqələrin daha bir sübütü kimi göstərmək mümkündür (Şəkərəliyev A., və Şəkərəliyev Q., 2016).

1995-ci ildən Azərbaycan Gömrük Xidməti ÜGT ilə əməkdaşlıq edir. Ümumdünya Gömrük Təşkiları hər bir regionda Təşkilatın potensialının gücləndirilməsi üçün regionallaşma strastegiyası həyata keçirir. Bu strategiyaya əsasən də Potensialın Gücləndirilməsi istiqamətində Regional Ofisin açılması qərara alınıb. 2009-cu ildə alınan qrara əsasən DGK və ÜGT arasında Potensialın Gücləndirilməsi İstiqamətində Regional Ofisin açılması ilə bağlı Anlaşma Memorandumuna əsasən Avropada yeganə ofisin açılışı həyata keçib. Bu açılış mərasimində Avropa Komissiası, BMT-nin Narkotiklər və Cinayətkarlıq üzrə İdarəsi, Ümumdünya Gömrük Təşkilatı, Mərkəzi Asiya Regional İnformasiya Əlaqələndirmə Mərkəzi, İNTERPOL kimi beynəlxalq təşkilatların yüksək vəzifəli nümayəndələri və rəhbər heyyəti iştirak edirdi (https://customs.gov.az/az/xeberler/502_dovlet-gomruk-komitesinin-beynelxalq-emekdasliq-elaqeleri-inkisaf-edir/, 2011).

Belə bir əməkdaşlıqlar Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin beynəlxalq əlaqələrdə necə uğurlu inkişaf etdiyinin şahidi olarıq.

Dünya təcrübəsinə baxdıqda dünyanın hər bir ölkəsinin gömrük tarif sistemində atıdığı addımlar əsas ölkənin iqtisadiyyatını, xarici ticarətini yüksəltmək üçün atılan addımlardandır. Ölkələr regional təşkilatlara qoşularaq ordakı güzəştlərdən yararlanaraq öz gömrük sisteminin inkişafına və gömrük tarif sisteminin təkmilləşdirilməsinə səbəb olurlar.

**QİYMƏTLƏNDİRİLMƏSİ.**

# II FƏSIL. AZƏRBAYCAN RESPUBLİKASININ XARİCİ İQTİSADİ FƏALİYYƏTİNİN MÖVCUD VƏZİYYƏTİ VƏ ONUN

## 2.1. Qloballaşma prosesi. Azərbaycanın  dünya təsərrüfatına inteqrasiyası.

Qloballaşma – bu söz fransızcadan “qlobal” ümumi, latınca isə mənası “qlobus”– kürə söüzündən götürülüb. Keçmişə qayıtsaq, görərik ki, “qloballaşma” sözünə ilk dəfə elmi ədəbiyyatlarda XX ci əsrdə rast gəlinib. Bəhs etdiyimiz dövrdə dünyada baş verən prosesləri daha geniş şəkildə izah etmək üçün 1967-ci ildə ilk dəfə “qloballaşma” termininən istifadə edilib.

“Qlobllaşma” termini 1980-cı illərin ortalarından müasir anlamda istifadə edilmişdir. 1983-cü ildə Teodor Levitin, "Bazarların qloballaşması" adlı məqaləsi "Harvard biznes revyu" jurnalında çap etdirməsi bu terminin daha da tanınmasına gətitib çıxardı.

“Qloballaşma” anyalışının akademik formada geniş yayılması isə amerikan sosioloq R.Robertsonun adı ilə bağlamaq olar. 1980-1990-cı illərdə “qloballaşma” anlayışının ilk dəqiq işlənmiş forması ortaya qoyulmuşdur.

Azərbaycan alimlərindən isə qloballaşma prosesinin müxtəlif aspektlərinə dair əsərləri akademik R. Mehdiyev, professorlar S. Xəlilov, R. Mustafayev və A. Şükranov yazmışdır.

Cəmiyyətin qərb modelinə münasibətdə qloballaşmanın ideoloqları iki qaydanı əsas götürürlər:

1. Vahid bazarda hər bir ölkə üçün faydalı olan nə varsa birləşdirmə,
2. Məhsuldar qüvvələrin yüksəlişi sayəsində gəlirlərin artması,rəqabət nəticəsində hər bir ölkədə qaliblərin və məğlubların olması imkanı (A.M.Şükürov., 2001)

Qlobllaşma mövzusunda müxtəlif yanaşmalar mövcuddur. Bəzi alimlər hesab edirlər ki, qloballaşma dövlətn müstəqilliyinə məhdudiyyətlər qoyur, mədəniyyəti məhv edir, ölkəyə xas olmayan isatehsal sahələrini zorla tətbiq etdirir və s. Bir digər qrup isə qloballaşma anlayışını svilizasiyaların toqquşması və onların müharibələri

kimi qəbul edir. Onlar düşünür ki, qloballaşmaya qarşı olan fikir müxtəlifliyi bütün dünyanı iki fərqli düşüncə olan qlobalist və antiqlobalistlərə ayırır. Bu fərqli cəhbənin yaranması onlara görə qloballaşmanın önündə gedən ABŞ və onun düşmənləri ilə mübrizə zamanı hər bir qüvvəni öz əlində saxlamağa imkan verir.

Qloballaşma ümumdünya bir anlayışdır və bu proses bütün dünyanı əhatə edir. Azərbaycan da öz növbəsində qloballaşma şəraitində öz iqtisadi modelinə uyğun dünya iqtisadiyyatına intqrasiya edir.

Dövlətimizin yen müstəqillik illərində, müstəqilliyin bərpası və bazar iqtisadiyyatına keçid dövründə öz iqtisadi inkişafı və əhalinin sosial rifahının yaxşılaşdırılması üçün yeni imkanlar yaranmışdı. Bu imkanların reallaşdırılması üçün güclü xarici iqtisadi və ticarət əlaqələri olduqca önəmli idi. Xarici əlaqələr bütün dünya ölkələrinin inkişafı üçün yüksək dinamiklik göstərir.

Azərbaycanın uzun müddət dünya ölkələrindən təcrid olunması, öz milli əlaqələrinin, milli iqtisadiyyatının olmaması ölkənin yeni müstəqillik illərində dünya iqtisadiyyatına ntiqrasiya zamanı çətinliklər yaradan amillərdən idi. Bu səbəbdən də yeni əlaqələrin qurulması üçün köklü, möhkəm tədbirərin görülməsi zəruri idi. SSRİ-nin süqutu zamanı bu respublika tərkibində olan yalnız iki dövlətin tam müstəqil olma imkanı var idi. Bunlardan biri Rusiya, digəri isə Azərbaycan idi. Azərbaycanın o dövr üçün xariclə mərkəzin icarəzi olmasdan nə siyasi, nə də iqtisadi əlaqələrin qurulması üçün heç bir şansı yox idi.

Bu səbəbdən də yeni müstəqillik illərində xarici əlaqələrin qurulması Azərbaycan tərəfi üçün çox ciddi bir məsələ kimi qalmışdır. Azərbaycanın o zaman ümumi vəziyyətinin müsbət istiqamətlənməsi, yalnızca H. Ə. Əliyev kimi müdrik və uzaqgörən şəxsiyyətin ölkəmizə başçılıq etməsi halında mümkün ola blərdi. Bu elədə oldu. H. Əliyevin dediyi tarixi ifadə məhz həmin dövr üçün Azərbaycanla bağlı məqsədlərini özündə birləşdirirdi. O, qeyd edirdi ki, “Mən o vaxt Azərbaycanın gələcəyi haqqında düşünürdüm” (Vəliyev D., 2008).

Müstəqillik illərindən sonra Azərbaycan Heydər Əliyevin başçılığı altında Avropa və Avrasiyaya inteqrasiyasına başladı. Bu önəmli prosesin əsas hədəfi iqtisadi, sosial, hüquqi, mədəni aspektlərdə dövlətçiliyin möhkəmləndirilməsi və xarici əməkdaşlıqların edilməsi oldu.

Son onilliklərdə getdikcə daha da intensivləşən, geniş vüsət alan inteqrasiya, regional əməkdaşlıq və qloballaşma formalarının Azərbaycan üçün ən əlverişli və sərfəli olan modellərini o dövrdə qoyulmuş iqtisadi və siyasi yol kimi hesab olunur. Bu yol daim dəyişən dünyada iqtisadi inteqrasiyada yeni istiqamət və formaları daha dah aktual edir. Azərbaycanın dünya birliyinə inteqrasiya olunması onun regional qurumarda iştirak etməsi, dünya təcrübəsinə yiyələnməsi və daha əsas iqtisadi, siyasi sahədə inkişaf hədəfləməsidir.

Müasir dövrümüzdə iqtisadi və siyasi inteqrasiya prosesləri, dövlətlərarası regional ittifaqların formalaşması, birlikların yaradılması geniş vüsər almışdır. Ən parlaq nümunə kimi buna Avropa Birliyini misal göstərmək olar. Bu quruma üzv olmaq istəyənlərin çoxluğu, Avropa ərazisində inteqrasiya məsələlərinin dövlətlər arasında əməkdaşlığın optimal variantı olmasından irəli gəlir.

## 2.2. Dünya iqtisadiyyatına səmərəli inteqrasiya şərtlərinin təmin edilməsində ölkənin gömrük-tarif siyasəti.

Dünya birliyinə inteqrasiya Azərbaycan dövləti üçün milli inkişafın proritet istiqamətlərindən biridir. Azərbaycan yeni dünya modelində öz rolunu və öz yerini müəyyən etməyə çalışır. Avropa birliyi ilə əməkdaşlıq ölkəmizin ən mühüm xarici siyasət istiqamətlərindəndir. Avropa modeli özünəməxsus maraqlı xüsusiyyəti, zənginliyi ilə beynəlxalq təcrübənin öyrənilməsi və inteqrasiyası zamanı xüsusi diqqəti cəlb edir. Bu özəlliklərin nəticəsi olaraq da Azərbaycan həm regional, həm də qlobal inteqrasiyada birbaşa iştirak edir.

İnteqrasiya zamanı ölkə idxal və ixrac həcminə görə hər il daha da inkişafyönümlü siyasət aparmağı hədəfləyir. Müxtəlif illərdə Azərbaycanın idxal və ixrac siyasətinə

nəzər yetirdikdə görürük ki, xarici ticarət dövriyyəsində illər keçdikcə həm idxalın, həm də ixracın həcmi artmaqdadır. Aşağıdakı cədvəl və qrafikdə də göstərilib (https://customs.gov.az/az/faydali/gomruk-statistikasi/xarici-ticaretin-veziyyeti-haqqinda/-2020).

**Cədvəl 1. Xarici ticarətin əsas gömrük göstəriciləri (min ABŞ dolları)**

| İllər üzrə | İxrac | İdxal |
|---|---|---|
| 2017 | 13811624.44 | 8782007.55 |
| 2018 | 19458632.51 | 11464970.08 |
| 2019 | 19635580.41 | 13667237.83 |

**Mənbə:** Dövlət Gömrük Komitəsinin rəsmi saytı əsasında magistrant tərəfindən tətrib edilmişdir. (https://customs.gov.az) (2020)

Cədvəldən göründüyü kimi 2017-ci ldə ixrac əməliyyatlarının ümumi həcmi 13811624.44 min dolları, idxal əməliyyatlarının həcmi isə 8782007.55 min dollar təşkil etmişdir. 2018-ci ildə isə ixrac əməliyyatlarının həcmi 19458632.51 min dollar, idxal əməliyyatları isə 11464970.08 min dollar olduğu halda, 2019-cu ildə bu göstərici ixrac əməliyyatları üzrə 19635580.41 min dollar, idxal əməliyyatları üzrə isə 13667237.83 min dollar təşkil etmişdir. Təhlil olunan illər ərzində həm idxal, həm də ixrac əməliyyatlarının artımı müşahidə olunmuşdur.

**Qrafik 1. Xarici ticarətdə idxal və ixracın həcmi (min ABŞ dolları)**




**Mənbə:** Dövlət Gömrük Komitəsinin rəsmi saytı əsasında magistrant tərəfindən tətrib edilmişdir. (https://customs.gov.az) (2020)

Bu göstəricilər üzrə qrafikə nəzər yetirdikdə daha da aydın görünür ki, idxal əməliyyatlarının artımı ixrac əməliyyatlarına nibətən sabit olmuşdur. Bunu qrafikdən

daha aydın görmək olar. Bu statistik göstəricilər gömrük-tarif tənzimlənməsinin səmərəli idarə olunması üçün daima nəzarətdə saxlanılır.

Dövlət Gömrük Komitəsi gömrük siyasətinə uyğun olaraq daxili bazarın tələb və təklifinə, həm ölkə daxili, həm də xarici qiymət səviyyəsinə uyğun olaraq tənzimləyir. Bu təhlil nəticəsində həm ixrac, həm də idxal əməliyyatlarının həcminin artması müşahidə olunmuşdur. Eyni zamanda təhlil olunan dövr ərzində ixrac əməliyyatlarının həcmininidxal əməliyyatlarına nisbətən daha çox olması müşahidə olunmuşdur.

Son illərdə Azərbaycan Respublikası bir çox ölkələrlə xarici ticarət əməliyyatlarının aparılması üçün təsərrüfat əlaqələri yaratmışdır. MDB ölkələri, Avropa İttifaqı ölkələri ilə böyük həcmdə ticarət əməliyyatları aparmışdır. Bu göstəriciləri aşağıdakı cədvəldən daha aydın görmək olar.

**Cədvəl 2. İxrac üzrə ticarət əməliyyatları (min ABŞ dolları)**

| | 2017 | 2018 | 2019 |
|---|---|---|---|
| MDB ölkələri | 1050074.48 | 1138217.03 | 1178437.28 |
| Aİ ölkələri | 7452308.15 | 10579024.1 | 10499240.9 |
| Digər ölkələr | 5309241.81 | 7741391.34 | 7957902.23 |

**Mənbə:** Dövlət Gömrük Komitəsinin rəsmi saytı əsasında magistrant tərəfindən tətrib edilmişdir. (https://customs.gov.az) (2020)

MDB ölkələri ilə respublikamız arasında aparılan ixrac əməliyyatları 2017-ci ildə 1050074.48 min dollar, 2018-ci ildə 1138217.03 min dollar, 2019-cu ildə isə 1178437.28 min dollar təşkil etmişdir. İxrac əməliyatlarının həcmində 2017-ci ilə nisbətən 2019-cu ildə artım müşahidə olunmuşdur. Avropa İttifaqı ölkələri üzrə ilə aparılan ixrac əməliyyatları 2017-ci ildə 7452308.15 min dollar, 2018-ci ildə 10579024.1 min dollar, 2019-cu ildə isə 10499240.9 min dollar olmuşdur. 2019-cu ildə MDB ölkələri ilə aparılan ixrac əməliyyatları Avropa İttifaqı ölkələri ilə müqaisədə daha çox olmuşdur. Digər ölkələrlə aparılan ixrac əməliyyatları 2017-ci ildə 5309241.81 min dollar, 2018-ci ildə 7741391.34 min dollar, 2019-cu ildə isə

7957902.23 min dollar olmuşdur. Ümumilikdə Azərbaycanın Avropa İttifaqı ölkələri ilə ticarət əlaqələrinin daha geniş olması, təhlil nəticəsində öz sübutunu tapmışdır.

**Qrafik 2. İxrac üzrə ticarət əməliyyatları həcmi**




**Mənbə:** Dövlət Gömrük Komitəsinin rəsmi saytı əsasında magistrant tərəfindən tətrib edilmişdir. (https://customs.gov.az) (2020)

Respublikamızın ixrac əməliyyatlarını əsas Avropa İttifaqı ilə etdiyi bir öncəki cədvəldə qeyd olunub. 2019-cu ilin rəqəmlərinə əsasən bu ölkələr arasında Azərbaycanın əsas ixrac əməliyyatlarının həyata keçirdiyi ölkə İtaliyadır. İtaliya ümumi ixrac əməliyyatlarının 28.72% - nı təşkil edir. Bundan əlavə ixrac əməliyyatları həm coğrafi, həm də milli dəyərlər baxımından respublikamıza yaxın olan Türkiyə ilə daha çox aparılır. Türkiyə ilə ixrac əməliyyatları ümumi ixracın 14.58% - nı təşkil edir. Dünya iqtisadiyyatında xüsusi çəkisi olan ölkələrdən Çinlə isə ixrac əməliyyatları 3.83% təşkil edir. Bundan əlavə ölkəmizin ixrac əməliyyatlarında üstünlük təşkil edən ölkələr İsrail 6.78%, Hindistan 4.87%, Almaniya isə müvafiq olaraq 4.75% təşkil etmişdir.

Bu təhlildə də göründüyü kimi ixrac əməliyyatları əsasən Avropa İttifaqı ölkələri və MDB ölkələrində üstünlük təşkil edir. Ümumilikdə 2019-cu ildə ixrac əməliyyatalrının xüsusi həcmi Aİ ölkələri ilə 53.47%, MDB ölkələri ilə isə 6% təşkil edilir.

**Cədvəl 3. İxrac əməliyyatları ən çox aparılan ölkələr (faizlə)**

| | | |
|---|---|---|
| **1** | **İtaliya** | **28.72%** |
| **2** | **Türkiyə** | **14.58%** |
| **3** | **İsrail** | **6.78%** |
| **4** | **Hindistan** | **4.87%** |
| **5** | **Almaniya** | **4.75%** |
| **6** | **Çin** | **3.83%** |
| **7** | **Rusiya** | **3.73%** |
| **8** | **İspaniya** | **3.59%** |
| **9** | **Çexiya** | **3.30%** |
| **10** | **Gürcüstan** | **2.99%** |

**Mənbə:** Dövlət Gömrük Komitəsinin rəsmi saytı əsasında magistrant tərəfindən tətrib edilmişdir. (https://customs.gov.az) (2020)

İdxal əməliyyatlarında isə ixrac əməliyyatlarına nisbətdə Avropa İttifaqı ölkələri ilə daha az əməliyyatlar aparılır. İdxal əməliyyatlarının çox aparıldığı əsas ölkələr ixrac əməliyyatlarından fəqrli olaraq nə MBD ölkələri ilə, nə də Avropa İttifaqı ölkələri ilə çox aparılmır. Cədvəldə göründüyü kimi hər il bir öncəsindəkindən daha böyük idxal həcminin şahidi olduq. Həmçinin Azərbaycanın xarici ticarətində əsas ölkələrlə münasibətlərinin il ildən artması da ölkə iqtisadiyyatının inkişafının göstəricisi kimi dəyərəndirilir.

Azərbaycanın son üç ildə idxal üzrə əməliyyatları aşağıdakı 4. cədvəldə qeyd edilib. 2017-ci ildə 2396235.94 min dollar, 2018-ci ildə 2862139.67 min dollar, 2019-cu ildə isə 3432543.3 min dollar idxal əməliyyatları olmuşdur. Avropa İttifaqı ölkələri ilə isə 2017-ci ildə 1942930.42 min dollar, 2018-ci ildə 2328676.89 min dollar və 2019-cu ildə 2430718.99 min dollar idxal əməliyyatları aparılıb. Bu iki qrup ölkələrdən kənar qalan digər ölkələr 2017-ci ildə 4442841.19 min dollar, 6274153.52 min dollar və 2019-cu ildə 7803975.54 min dollar təşkil edilib.

**Cədvəl 4. İdxal üzrə ticarət əməliyyatları həcmi (min ABŞ dolları)**

| | 2017 | 2018 | 2019 |
|---|---|---|---|
| MDB ölkələri | 2396235.94 | 2862139.67 | 3432543.3 |
| Aİ ölkələri | 1942930.42 | 2328676.89 | 2430718.99 |
| Digər ölkələr | 4442841.19 | 6274153.52 | 7803975.54 |

**Mənbə**: Dövlət Gömrük Komitəsinin rəsmi saytı əsasında magistrant tərəfindən tətrib edilmişdir. (https://customs.gov.az) (2020)

3. qrafikdə bütün idxal əməliyyatlarının son üç il ərzində nəticələri qeyd edilib. Qrafikdə də göründüyü kimi ölkəmizin idxal əməliyyatları ildən ilə daha da artmaqda davam edir.

**Qrafik 3. İdxal üzrə ticarət əməliyyatları həcmi**




**Mənbə:** Dövlət Gömrük Komitəsinin rəsmi saytı əsasında magistrant tərəfindən tətrib edilmişdir. (https://customs.gov.az) (2020)

Azərbaycanın 2019-cu ildə əsas idxal əməliyyatlarının apardığı ölkə Rusiya olmuşdur. Rusiya ilə idxal əməliyyatları ümumi idxal əməliyyatlarının 16.76% -nı təşkil edir. İkinci əsas ölkə isə Türkiyədir və 12.05%-la ən çox idxal əməliyyatları aparılan ikinci ölkə olaraq qeyd edilib. Daha sonra müvafiq olaraq Çin 10.48%, İsveçrə 8.95%, ABŞ 5.62%, Almaniya 5.20%, Ukrayna 3.42%, İran İslam Respublikası 3.31%,

Kanada 2.91% və ixrac əməliyyatlarının ən çox aparıldığı ölkə olan İtaliya ilə olan idxal əməliyyatlarının həcmi isə 2.71% təşkil etmişdir.

**Cədvəl 5. İdxal əməliyyatları ən çox aparılan ölkələr (faizlə)**

| | | |
|---|---|---|
| 1 | Rusiya | 16.76% |
| 2 | Türkiyə | 12.05% |
| 3 | Çin | 10.48% |
| 4 | İsveçrə | 8.95% |
| 5 | Amerika Birləşmiş Ştatları | 5.62% |
| 6 | Almaniya | 5.20% |
| 7 | Ukrayna | 3.42% |
| 8 | İran İslam Respublikası | 3.31% |
| 9 | Kanada | 2.91% |
| 10 | İtaliya | 2.71% |

**Mənbə:** Dövlət Gömrük Komitəsinin rəsmi saytı əsasında magistrant tərəfindən tətrib edilmişdir. (https://customs.gov.az) (2020)

Azərbaycanın ixrac əməliyyatlarında üstünlük təşkil edən ölkələrə nəzər saldıqdan sonra, həmin ölkələr və bütün idxal, ixrac əməliyyatları yerinə yetirdiyi ölkələrlə münasibətlərində hansı malların üstünlük təşkil etdiyini növbəti cədvəl və qrafikdə görmək mümkündür. 6. cədvələ nəzər yetirdikdə ölkənin ən çox ixrac edilən mallar neft və neft məhsullarıdır. 2017-ci ildə xam neft 10706818 min dollar, 2018-ci ildə 15719482 min dollar, 2019-cu ildə isə 14814133 min dollar olmuşdur. Təbii qaz ixracı isə bu dövr ərzində 2017-ci ildə 1193712 min dollar, 2018-ci ildə 1499386 min dollar, 2019-cu ildə də müvafiq olaraq 2366834 min dollar olmuşdur. Bu dövr ərzində ixrac malları daxilində neft və neft məhsullarından əlavə ölkənin ən çox ixrac etdiyi mallara meyvə-tərəvəz malları da daxildir. İxrac əməliyyatlarında yeyinti sahəsində ən çox ixrac edilən meyvə-tərəvəzin həcmi 2017-ci ildə 502827 min dollar, 2018-ci ildə 559628 min dollar, 2109-cu ildı 605816 min dollar təşkil etmişdir.

Ölkəmizin əsas ixracı neft və neft məhsulları olması Azərbaycan Respublikasının müstəqilliyinin ilk illərindən planlaşdırdığı bir iqtsadi yoldur. Hal hazırda ölkəmizin əsas hədəflərindən biri isə qeyri-neft sektorunun bazardakı gücünün artırılmasıdır.

Qeyri-neft sektorunun inkişafı, kənd təsərrüfatının və digər istehsal müəssisələrinin inkişaf edilməsi ilə bağlıdır

**Cədvəl 6. İxracda əsas mallar (min ABŞ dolları)**

| | 2017 | 2018 | 2019 |
|---|---|---|---|
| **Xam neft** | 10706818 | 15719482 | 14814133 |
| **Təbii qaz** | 1193712 | 1499386 | 2366834 |
| **Meyvə-tərəvəz** | 502827 | 559628 | 605816 |

**Mənbə:** Dövlət Gömrük Komitəsinin rəsmi saytı əsasında magistrant tərəfindən tətrib edilmişdir. (https://customs.gov.az) (2020)

Qrafik 4-də təbii qazın illər keçdikcə artımı müşahidə olunur. Təbii qazın ixracı ilə bağlı əsas artımın da 2019-cu ildə olması təsadüfi deyil. TANAP Layihəsinin istismarı nəticəsində 2019-cu ildə təbii qazın ixracında sürətli artımın şahidi olmuşuq. Tanap Layihəsi Azərbaycan hüdudlarındakı Xəzər Dənizinin "Şahdəniz-2" yatağından və digər sahələrindən hasil olunan təbii qazın Türkiyə və onun üzərindən bütün Avropa ölkələrinə ixracını planlaşdıran bir layihədir. (http://www.socarmidstream.az/az/project/tanap/#overview)

**Qrafik 4. İxracda əsas mallar (min ABŞ dolları)**




**Mənbə:** Dövlət Gömrük Komitəsinin rəsmi saytı əsasında magistrant tərəfindən tətrib edilmişdir. (https://customs.gov.az) (2020)

İxracda əsas pay neft və netf məhsullarının üzərinə düşsə də idxalda əsas üstünlük yeyinti mallarındadır. Yeyinti mallarının idxal dəyəri 2017-ci ildə 1403819 min dollar, 2018-ci ildə 1370596 min dollar, 2019-cu ildə isə 1644360 min dollar təşkil etmişdir.

Respublikamızın ən çox idxal etdiyi digər mallar isə maşın, mexanizm və onların hissələridir. Bu mallardan 2017-ci ildə 1866665 min dollar, 2018-ci ildə 2588935 min dollar və 2019-cu ildə 2661228 min dollar dəyərində idxal edilmişdir. Bir digər ən çox idxal olunan mallardan nəqliyyat vasitələri və onların ehtiyyat hissələri 2017-ci ildə 1078790 min dollar, 2018-ci ildə 945478 min dollar, 2019-cu ildə 1250843 min dollar olaraq təhlil edilmişdir.

**Cədvəl 7. İdxalda əsas mallar (min ABŞ dolları)**

| | 2017 | 2018 | 2019 |
|---|---|---|---|
| **yeyinti məhsulları** | 1403819 | 1370596 | 1644360 |
| **maşın, mexanizm və s hissələri** | 1866665 | 2588935 | 2661228 |
| **nəqliyyat vasitələri və hissələri** | 1078790 | 945478 | 1250843 |

**Mənbə:** Dövlət Gömrük Komitəsinin rəsmi saytı əsasında magistrant tərəfindən tətrib edilmişdir. (https://customs.gov.az) (2020)

Qrafik 5-də idxal əməliyyatlarında iştirak edən əsas mallar illər üzrə qeyd olunub. Ümumilikdə bütün qeyd olunan mallardan əsas maşın, mexanizm və onların ehtiyyat hissələri illər ərzində daim artan olmuşdur.

**Qrafik 5. İdxalda əsas mallar (USD ilə)**




**Mənbə:** Dövlət Gömrük Komitəsinin rəsmi saytı əsasında magistrant tərəfindən tətrib edilmişdir. (https://customs.gov.az) (2020)

Nəqliyyat vasitələri də ölkəmizdə son illərdə ən çox idxal olunan mallar siyahısına dail edilib. Bununla bağlı son 3 ildə avtomobil idxalı haqqında rəqəmlərlə qrafikdə

müqayisə edilib. Burda avtomobillərin əsas hansı formatda bölgüsünün aparılması, gömrük rüsumlarının nələrə əsasən aslınması əsas götürülüb. Və bu bölgülər üzrə də statistika qeyd edilib. Sərnişin sayına görə 10 nəfərdən daha çox adam üçün nəzərdə tutulmuş motorlu məqliyyat vasitəsindən 2017-ci ildə 187 ədəd, 2018-ci ildə 297 ədəd, 2019-cu ildə isə 547 ədəd olmuşdur. Mikin avtomobilləri 2017-ci ildə 11610 ədəd, 2018-ci ildə 26147 ədəd və 2019-cu ildə 43156 ədəd qeydə alınıb. Yük avtomobilləri isə 2017-ci ildə 1227 ədəd, 2018-ci ildə 2300 ədəd və 2019-cu ildə 3780 ədəd idxal olunub. Xüsusi təyinatlı motorlu nəqliyyat vasitələri 2017-ci ildə 74 ədəd, 2018-ci ildə 132 ədəd, 2019-cu ildə 227 ədəd qeyd olunub.

**Cədvəl 8. Avtomobillərin idxalı haqqında məlumat (ədəd)**

| | 2017 | 2018 | 2019 |
|---|---|---|---|
| Sürücü daxil olmaqla 10 nəfər və ya daha çox adam daşımaq üçün nəzərdə tutulmuş motorlu nəqliyyat vasitələri | 187 | 297 | 547 |
| Əsasən adamların daşınması üçün nəzərdə tutulmuş minik avtomobilləri və digər motorlu nəqliyyat vasitələri | 11610 | 26147 | 43156 |
| Yük daşımaq üçün motorlu nəqliyyat vasitələri | 1227 | 2300 | 3780 |
| Xüsusi təyinatlı motorlu nəqliyyat vasitələri | 74 | 132 | 227 |

**Mənbə:** Dövlət Gömrük Komitəsinin rəsmi saytı əsasında magistrant tərəfindən tətrib edilmişdir. (https://customs.gov.az ) (2020)

Bildiyiniz kimi Azərbaycan su, quru, həmçinin hava yolu ilə həm idxal, həm də ixrac əməliyyatlarını yerinə yetirir. Aşağıdakı 9. cədvəldə daşınan yüklərin ixrac yolları qeyd olunub və həmin yollar üzrə son 3 ildə malların miqdarı tonla qeyd olunub. Dəmir yolu nəqliyyatı üzrə 2017-ci ildə 2065508 ton, 2018-ci ildə 2313762 ton, 2019-cu ildə isə 2317161 ton mal ixrac olunub. Avtomobil nəqliyyatı üzrə isə 2017-ci ildə 911690 ton, 2018-ci ildə 1110260 ton, 2019-cu ildə 1381447 ton ixrac olunan mal qeydə alınıb. Həmçinin dəniz nəqliyyatında 2017-ci ildə 413429 ton, 2018-cu ildə 235201 ton, 2019-cu ildə isə 336247 ton mal ixrac olunub.

**Cədvəl 9. Daşınan yüklərin ixrac yollarının həcmi (ton)**

| | 2017 | 2018 | 2019 |
|---|---|---|---|
| dəmir yolu nəqliyyatı | 2065508 | 2313762 | 2317161 |
| avtomobil nəqliyyatı | 911690 | 1110260 | 1381447 |
| dəniz nəqliyyatı | 413429 | 235201 | 336247 |

**Mənbə:** Dövlət Gömrük Komitəsinin rəsmi saytı əsasında magistrant tərəfindən tətrib edilmişdir. ( https://customs.gov.az ) (2020)

Aşağıdakı qrafikə nəzər saldıqda görünür ki, malların əsas ixrac yolu dəmir yolu üzrdir. Son illərdə qismən sabitlik olsa da illər üzrə artım müşahidə olunur. İkinci əsas ixrac yolu nəqliyyat vasitəsi, üçüncü isə dəniz nəqliyyatıdır. Ölkəmiz əsas dəniz qonşuları ilə dəniz nəqliyyatına üstünlük verməsi bu sahədə dəniz nəqliyyatının da statistikasının aparılmasını labüd etdi.

**Qrafik 6. Daşınan yüklərin ixrac yollarının həcmi (ton)**




**Mənbə:** Dövlət Gömrük Komitəsinin rəsmi saytı əsasında magistrant tərəfindən tətrib edilmişdir. ( https://customs.gov.az ) (2020)

Bundan əlavə Azərbaycana idxal olunana malların əsas hansı yollarla olduğu da 10. cədvəldə təhlil olunub. Dəmir yolu ilə 2017-ci ildə 4419513 ton, 2018-ci ildə 4380559 ton, 2019-cu ildə isə 5246473 ton mal idxal olunub. Avtomobil yolunda isə 2017-ci ildə 1998425 ton, 2018-ci ildə 229444 ton, 2019-cu ildə isə 2401075 ton mal

idxal olunub. Digər nəqliyyat vasitəsi olan dəniz nəqilyyatı ilə 2017-ci ildə 527232 ton, 2018-ci ildə 694564 ton, 2019-cu ildə 1210470 ton mal idxal olunduğu təhlil olunub.

**Cədvəl 10. Daşınan yüklərin idxal yollarının həcmi (ton)**

| | 2017 | 2018 | 2019 |
|---|---|---|---|
| dəmir yolu nəqliyyatı | 4419513 | 4380559 | 5246473 |
| avtomobil nəqliyyatı | 1998425 | 2299444 | 2401075 |
| dəniz nəqliyyatı | 527232 | 694565 | 1210470 |

**Mənbə:** Dövlət Gömrük Komitəsinin rəsmi saytı əsasında magistrant tərəfindən tətrib edilmişdir. ( https://customs.gov.az ) (2020)

Qrafik 7. də göründüyü kimi Azərbaycanın idxal sahəsində əsas üstünlük verdiyi nəqliyyat yolu dəmir yol nəqliyyatıdır. Ümumilikdə respublikamızın ticarət əlaqələrinin genişlənməsi nəticəsində idxal yollarında da ildən ilə artım müəyyən edilir.

**Qrafik 7. Daşınan yüklərin idxal yollarının həcmi (ton)**




**Mənbə:** Dövlət Gömrük Komitəsinin rəsmi saytı əsasında magistrant tərəfindən tətrib edilmişdir. ( https://customs.gov.az ) (2020)

Azərbaycanın dünya təsərrüfatına inteqrasiyası zamanı dövlətin ən mühüm strukturu Dövlət Gömrük Komitəsidir. Gömrük sistemi vasitəsilə həm ölkə daxili bazarın tənzimlənməsinə, həm dövlət gəlirlərinin yığılmasına və s. nəzarət edir. Gömrük-tarif tənzimlənməsinə əsasəm gömrük rüsumları vasitəsilə dövlət gəlirləri müəyyənləşir.

Son rəqəmlərə əsasən Dövlət Gömrük Komitəsinin rəsmi məlumatına əsasən 2020-ci ilin yanvar ayı təhlil olunmuşdur. Aparılan tədqiqat nəticəsində əladə olunan məlumata əsasən yanvar ayında büdcə daxilolmaları cəmi 333701.3 AZN olub. Bu daxilolmalar daha da təsnifləşdirilsə sırf olaraq ƏDV üzrə 235905 AZN, Aksizlər üzrə 9679.3 AZN, Yol vergisi üzrə 3755.6 AZN və Gömrük rüsumu üzrə 84361.4 AZN büdcə daxilomaları olmuşdur. Aşağıdakı 11. cədvəldə tam şəkildə daxilolmaları görmək mümkündür (https://customs.gov.az/az/faydali/budce-daxilolmalari -2020 ).

**Cədvəl 11. 2020-ci il yanvar ayı, gömrük daxilolmaları (manat)**

| | Gömrük rüsumu üzrə | ƏDV üzrə | Aksizlər üzrə | Yol vergisi üzrə | Cəmi |
|---|---|---|---|---|---|
| **Yanvar** | 84361.4 | 235905 | 9679.3 | 3755.6 | **333701.3** |

**Mənbə:** Dövlət Gömrük Komitəsinin rəsmi saytı əsasında magistrant tərəfindən tətrib edilmişdir. (https://customs.gov.az) (2020)

Müqayisəli təhlil aparıldıqda isə 2019-cu ilin yanvar ayında ümumi 329645.7 AZN, 2018-ci il yanvar ayında 226088.3 AZN, 2017-ci ildə isə 173962.6 AZN cəmi büdcə daxilolmasının şahidi oluruq.

Bu təsnifatla son üç ilin təhlili aparıldıqda görünür ki, hər il daxilolmalar daha da artmaqdadır. Belə ki, 2017, 2018 və 2019-cu il statistikasına əsasən büdcəyə ümumi daxilolmalar müvafiq olaraq 2608780 AZN, 3253078 AZN və 4408625 AZN olub. Son 3 ilin hər birində daha da artım olduğunu nəzərə alaraq 2020-ci ilin yanvar ayın da müqayisə etdiyimizə görə 2020-ci ildə də büdcə daxilolmalarının artması praqnoz edilir.

Azərbaycan Dövlət Gömrük Komitəsindən əldə edilən məlumatlara əsasən qeyd etmək olar ki, son illərdə gömrük üzrə daxilolmaların artması respublikanın bu istiqamətdə atdığı addımlara nümunədir. Dövlət büdcəsinin formalaşmasında gömrük daxilolmaların artması DGK-nin fiskal siyasətin nəticəsidir.

**Cədvəl 12. Son 3 il üzrə gömrük daxilolmaları**

| | 2017 | 2018 | 2019 |
|---|---|---|---|
| **gömrük daxilolmaları** | 2608780 | 3253078 | 4408625 |

**Mənbə:** Dövlət Gömrük Komitəsinin rəsmi saytı əsasında magistrant tərəfindən tətrib edilmişdir. ( https://customs.gov.az ) (2020)

Qrafik 8-də göründüyü kimu son illərdə gömrük daxilolmaları illik olaraq artım təşkil edir. Bu da artan ticarət əlaqələrinin əsas göstəricisidir.

**Qrafik 8. Son 3 il üzrə gömrük daxilolmaları**




**Mənbə:** Dövlət Gömrük Komitəsinin rəsmi saytı əsasında magistrant tərəfindən tətrib edilmişdir. ( https://customs.gov.az ) (2020)

# III FƏSİL. XARİCİ İQTİSADİ FƏALİYYƏTİN TƏNZİMLƏNMƏSİNDƏ GÖMRÜK-TARİF SİSTEMİNİN TƏKMİLLƏŞDİRİLMƏSİ İSTİQAMƏTLƏRİ.

## 3.1. Xarici ticarət fəaliyyətinin gömrük-tarif tənzimlənməsi konsep-siyası və onun tətbiqi vasitələri.

Gömrük siyasətinin müasir dövrdə əsas məqsədləri bunlardır:

1. gömrük nəzarəti vasitələrinin daha səmərəli istifadə edilməsini təmin etmək;
2. ticarət siyasəti vəzifələrinin bazarın qorunması məqsədilə həyata keçirilməsində iştirak;
3. milli iqtisadiyyatın inkişafının daim stimullaşdırılması;
4. gömrük orqanlarında həyata keçirilən struktur dəyişikliklərinin aparılmasına yardım;
5. milli maraqlar hesabına formalaşan digər vəzifələrin reallaşdırılması (http://wto.az/saheler/gomruk#gömrük-prosedurları, 2020)

Gömrük siyasəti müxtəlif ölkələrə əsasən müəyyənləşdirilir. Bu siyasəti müəyyənləşdirən, milli maraqların dövlət müdafiəsinin fərqli formaları mövcuddur. Bu siyasətin ən əsas növləri - fritredizm (sərbəst ticarət) və proteksionizm (himayədarlıq) siyasətidir.

Gömrük tənzimlənməsinin iki əsas funksiyası fərqləndirilir.

1. Fiskal
2. Proteksionist

Dövlət gəlirlərinin formalaşmasında istifadə edilən əsas tədbirlər fiskal funksiyaya aid edilir. Proteksionist funksiya isə əsas müdafiə funksiyası rolunu oynayır. İqtisadi təhlükəsizliyin təmin olunması ilə bağlı olan əasa iqtisadi siyasət Gömrük proteksionizmidir.

Proteksionizmin məqsədləri hazırda çoxluq təşkil edir. Bu siyasət milli iqtisadiyyatda yarana biləcək hər bir mənfi təsirlərdən ölkənin qorunması üçün başlıca

rol oynayır. Bu mənfi təsirlər özü iki yerə bölünə bilər. Belə ki, bu mənfi təsirlər həm qərəzli həm də qərəssiz ola bilər. Qərəzli mənfi təsir dedikdə ölkə iqtisadiyyatına xarici qüvvələr tərəfindən müdaxilələr, soyuq müharibələr nəticəsində baş vermiş mənfi təsirlər qeyd olunur. Hansıki ölkə iqtiadiyyatının zəifləməsinə birbaşa mənfi təsir göstərir. İkinci mənfi təsir olan qərəzsiz təsir də ölkə iqtisadiyyatına mənfi təsir göstərir. Lakin digərindən fərqli olaraq, bu mənfi təsirlər heç bir planlaşmaya uyğun olmayaraq, plansız şəkildə olunur. Bunlara iqtisadi böhranları misal çəkmək olar.

"Proteksionizm" siyasəti, 16-18ci əsrlərdə Adam Smitin dili ilə "merkantilizm" adlandırılağa başladı. Hazırda bu anlayışlar fərqli anlayış olsa da 17-18ci ərslərdə eyni anlayış kimi baxılırdı. Tarixçi P. Bayrox tədqiqatlara əsasən dəqiqləşdirdi ki, "merkantilizm" 1840cı illərdən sonra "proteksionizm" kimi adlandırılmağa başlandı.

Proteksionizm doktrinası İqtisadi nəzəriyyədə azad ticarət doktrinasına - fritredingə zidd olaraq göstərilir. Adam Smit dövründən bu yana bu iki doktrinaarsındakı münahisə davam edir. Proteksionizm tərəfdarları bəzi göstəricilər üzrə azad ticarət doktrinasını tənqid edirlər. Bu göstəricilər demoqrafik göstəricilərin yaxşılaşmasınan, milli istehsalın artım mövqelərindən və əhalinin məşğulluğudan ibarətdir. Proteksionizm opponentləri onu istehlakçıların hüquqlarının qorunması və azad sahibkarlıq mövqelərindən tənqid edirlər.

Proteksionizm tənqidçilərinin sözlərinə əsasən gömrük rüsumları, qiymət artımına səbəb ola bilir. Öklə daxilində olan idxal mallarının qiymətinin artmasını gömrük rümumu ilə əlaqələndirən proteksionizm tənqidçiləri, bu artımnan ən çox istehlakçələrın zərər gördüyümü qeyd edirlər. İnhisarçılıq təhlükəsi də proteksionizmə qarşı olan mühüm arqumentlərdən biri kimi göstərilir. Xarici rəqabətdən müdafiə olunmaq inhisarçılara daxili bazara tam olaraq nəzarət etməyə yardım edə bilər. Nümunə kimi, Almaniya, Rusiyada 19-20 ci ərsin əvvəlində sənayenin sürətli şəkildə inhisarlaşmasının səbəbi kimi proteksionist siyasətin aparılması göstərlə bilər.

Fritredizm sözünün anlamı Free trade – azad ticarət deməkdir. Bu siyasət ticarətin azadlığını, dövlətin fərdi sahibkarlıq sahəsinə müdaxilə etməməsini dəstəkləyən siyasət, iqtisadi nəzəriyyə və təsərrüfat təcrübəsi istiqamətidir.

Ticarət azadlığı təcrübədə idxal, ixraca yüksək rüsumların qoyulmaması, həmçinin ticarətin qeyri-tarif məhdudiyyəti – idxala kvotelerın və subsidiyaların yerli istehsalçılar üçün aradan qaldırılması deməkdir. ölkə sənayesinin inkişafına xarici ticarət rejiminin necə təsir göstərdiyinə dair iqtisadçılar arasında fərli baxış bucaqları vardır. Bu mövzuda iki zidd fikilər mövcuddur. Hazırda Avropa ölkələrində liberal düşüncəli iqtisadiyyat məktəbinin tərəfdarları belə bir fikir irəli sürürlər ki, azad ticarət siyasəti sənayenin inkişafına təkan verməkdədir. Lakin proteksionizm (himayədarlıq) tərəfdarları olan iqtisadçılar isə bunun tam əksini düşünməkdədir.

Adam Smit liberal məktəbin banisi kimi qəbul edir ki, ən azından proteksionizmin bəzi sahələrin inkişafına təsiri olur. Təsir edilən bu sənaye sahələri idxal rüsumları hesabına qorunur.

"Xalqların zənginliyi" kitabında Adam Smit belə qeyd edirdi: “Qaxac ətin və ya diri mal-qaranın xaricdən gətirilməsinə tətbiq olunan qadağa daxili ət bazarında ölkə maldarlarının inhisar yaratmağına yol açır. Çörək istehsalçılarına üstünlüyü onun gətitilməsinda qoyulmuş yüksək rüsum qazandırır. Həmçinin əgər xaricdən yun gətirilməsinə qadağa qoyulsa, bu yun mallar istehsalı ilə məşğul olan sahibkarlar üçün sərfəlidir. Daxili bazarın bu üsulla qorunması, şübhəsiz ki, bundan istifadə edən sənaye sahələrinə təşviq olunur və cəmiyyətin kapital və əmək resurslarının vacib hssələri bu sahələrə çox zaman cəlb olunur.

Hal hazırda Gömrük sistemində olan konsepsiyalardan “açıq pəncərə” prinspin qeyd etmək olar. Azərbaycan Respublikası gömrük sistemində elektron rəsmiləşdirmə və nəzarət avtomatlaşdırılmış idarəetmə sisteminin konsepsiyasının hazırlanması və dövlət sərhədinin buraxılış məntəqələrindən keçirilən malları və nəqliyyat vasitələrinin yoxlanılmasında "bir pəncərə" prinsipinin avtomatlaşdırılmış idarəetmə sisteminin tətbiqi haqqında qərar qəbul edilib. Bu qərar AR Prezidentinin 12 saylı 2008-ci il 11

noyabr tarixli Fərmanına uyğun olaraq reallaşdırılan tədbirlər prosesinin davamı olaraq göstərilir. "Bir Pəncərə-AİS (Avtomatlaşdırılmış İdarəetmə sistemi)" 2009-cu il 4 iyun tarixində imzalanmış əmrlə tətbiq olunur.

Gömrük orqanlarının bu sistemin tətbiqində əsas məqsədi "kağızsız texnologiya" əsasında bəzi məsələlərin həllinə nail olmaqdır.

1. Gömrük orqanları tərəfindən gömrük ərazisinə gətirilən malların qeydiyyatının aparılması,
2. Gətirilən mal və nəqliyyat vasitələrinə elektron qaydada nəzarət etmək. Onların təyinat yerinı çatmasına birbaşa nəzarət edirlər.
3. Bu sistem vasitəsilə dövlət sərhəd buraxılış məntəqəsinindən keçirilən mal və nəqliyyat vasitələrinə nəzarət prosesinin asanlaşdırılması və lazımı indormasıyanın alınmasıdır.
4. Kağızsız texnologiya vasitəsilə gömrük proseslərinin daha sürətli olmasına birbaşa köməklik edirş
5. Bu sistem vasitəsilə dömrük buraxılış məntəqəsindən keçirilən nəqliyyat vasitəsi və malların gömrük yığımlarının elektron formada həyata keçirilməsini təmin edir (https://customs.gov.az/az/faydali/innovativ-layiheler/bir-pencere/, 2020).

"Bir Pəncərə-AİS" konsepsiyasının daha da genişləndirilməsi üçün 2009-cu il 12 avqustda yeni əmr imzalanıb. Əmrin imzalanmasında əsas məqsəd aşağıdakı məsələlərdir.

1. Nəqliyyat vasitələrinin və malların qeydiyyatı apatılarkən Dövlət Gömrük Komitəsinin hər bir gömrük idarəsində "Bir Pəncərə-AİS" sistemindən istifadə olunsun.
2. Nəqliyyat vasitələrinin və malların hesabatı, qeydiyyatı, nəzrəti və digər əməliyyatlar zamanı kağız formadan deyil də elektron formadan istifadə olunması nəzərdə tutulub.

Bundan əlavə Ələt Azad İqtisadi Zonası konsepsiyasında qeyd etmək olar. Bu konsepsiyanın həyata keçirilməsi Azərbaycan və həmçinin region üçün çox vacib

konsepsiyadır. Bu konsepsiya neəticəsində respublikamızın logistika və tranzit sahəsində imkanlarının artması mümkündür.

19-cu əsrə qədər protekionizm Avropa ölkələri tərəfindən icra olunan hakim iqtisadi doktrina olub. Lakin 19-cu əsrdən etibarən Böyük Britaniyanın irəli sürdüyü təşəbbüskarlıq nəticəsində proteksionizmin yerini azad ticarət doktrinası tutmuşdur. 1929-1930-cu ilərdə yəni, Böyük Depressiya illərində, azad ticarət siyasətindən Qərbi Avropada proteksionizm siyasətini daha sərt tətbiq etməyə başladı. ÜTT nin qərarına əsasən 1960-cı ilin sonuna qədər, Qərbi Avropa ölkələri və ABŞ xarici ticarətləri libeallaşana qədər bu siyasəti davam etdirdi. Fritredizm 20-ci əsrin sonlarından başlayaraq hakim konsepsiya olaraq müasir beynəlxalq ticarətdə mohkəmlənmişdir.

ÜTT 1947-ci ildə bağlanmış Tariflər və Ticarət haqqında Baş Saziş (GATT) əsasında yaradıldı və təqribən 50 ildir fəaliyyət göstərir. Faktiki olaraq beynəlxalq təşkilatdır, lakin buna baxmayaraq hüquqi baxımdan beynəlxalq bir təşkilat deyil.

ÜTT-nin əsas nəzarət etdiyi fəaliyyət yeni ticarət sazişlərinin hazırlanması və icrası, bununla bərabər təşkilat üzvlərinin dünyanın əksər ölkələrinin parlamentləri tərəfindən təsdiqlənmiş və imzalanmış bütün razılaşmalara uyğunluğu. Təşkilat 1986-1994-cü illərdə Uruqvay Turu və daha əvvəl GATT müqavilələri çərçivəsində qəbul edilmiş qərarlar əsasında öz fəaliyyətini davam etdirir.

ÜTT qaydalarının inkişaf etməkdə olan ölkələr üçün bir sıra üstünlükləri mövcuddur. Hal-hazırda, inkişaf etmiş ölkələrə nisbətən, inkişaf etməkdə olan ölkələr öz bazarlarının gömrük və tarif qorumalarından daha yüksək bir nisbi səviyyəyə sahibdirlər. Buna baxmayaraq belə, mütləq mənada, inkişaf etmiş ölkələrdə, inkişaf etməkdə olan ölkələrə nisbətən tarif və gömrük sanksiyalarının ümumi miqdarı daha çoxdur.

ÜTT qaydaları bəzi ölkələr üçün üstünlük yaradır. Bu qaydalar, əsasən inkişaf etməkdə olan ölkələrdə üstünlüklər yaradır. Hazırki dövrdə inkişaf etməkdə olan ölkələr, inkişaf etmiş ölkələrə nisbətən öz bazarlarında mövcud olan gömrük və tarif

qorumalarından daha yüksək nisbi səviyyəyə malikdirlər ( http://wto.az/azerbaycan-ve-utt/utt-ye-uzvluk/, 2019).

ÜTT qaydaları yalnızca iqtisadi və ticarət məsələlərini tənzimləyir. Hazırda ÜTT yə 164 ölkə üzvdür (2019).

ÜTT-yə üzv olmaq istəyən yeni ölkələr öz xarici iqtisadi fəaliyyətinin tənzimlənməsi təcrübəsini və milli qanunvericliyini Uruqvay Turu sazişləri paketinin maddələrinə əsasən uyğunlaşdırmalıdır.

Azərbaycanın dünya iqtisadiyyatı sisteminə inteqrasiya etməkdə əsas hədəfi ÜTT-yə qoşulmaqdır. ÜTT-yə üzv olmaq üçün əsas məqsədlər mövcuddur.

1. Dünya iqtisadiyyatı sisteminə daha sürətli inteqrasiya etmək,
2. ÜTT-yə üzv olan ölkələrarasında olan güzəştlərdən faydalanmaq,
3. Dünyanın bir çox ölkələri kimi ticarət əməliyyatlarını ÜTT tərəfindən müəyyən edilmiş qaydalara əsasən tənzimləmək,
4. Ölkədə islahatlar aparıldıqda həm inkişaf etmiş ölkələrdən, həm də beynəlxalq təşilatlardan yardımın artırılmasına nail olmaq,
5. ÜTT qaydalarını tətbiq etdikdən sonra birbaşa sərmayelərin artması,
6. Mübahisələrin həlli kimi ÜTT mexanizmindən istifadə etmək imkanı.

Əsas məqsədləri bəlli olan Azərbaycan, ÜTT-yə üzv olmaqla iqtisadi inkişafında yeni bir mərhələ yaratmaq istəyir. Azərbaycan ÜTT-yə İEOÖ kimi üzv ola bilər. Bunun əsas səbəbi kimi ÜDM-un ümumi həcminin 37.2% neft sektoru üzərindən olması, ixracın neft və neft məhsullarının payına düşən hissəsinin 88.9% olması, mikki iqtisadiyyatın " Resurs Lənəti" xəstəliyinə yoluxması istisnasının olmaması, həmçinin ölkə torpaqlarının 20%-ı işğalda olması, habelə ölkədə hər səkkiz nəfərdən birinin qaçqın statusuna malik olması Azərbaycanın ÜTT-tə İEOÖ kimi üzv olunmasına səbəb ola bilər.

ÜTT-yə üzvlük zamanı bəzi məsələlər qaldırılır ki, bunlar da kənd təsərrüfatının ölkə iqtisadiyyatında çəkisinin artması, əhalinin 50%-dan artıq hissəsinin kənd

yerlərində yaşaması, habelə dövlətin bu sahəyə göstərdiyi diqqət və kənd təsərrüfatına ayrılmış subsidiyalar, bu sahənin inkişafı üçün aqroiqlimin mövcudluğu olur.

Azərbaycanın əlbəttə ki, ÜTT-yə üzv olmaqda bəzi hədəfləri mövcuddur. Bu hədəflər ÜTT-yə üzv olduqdan sonra iqtisadiyyatın inkişafı üçün olunan optimal qazanclardır.

1. ÜTT-yə üzv olunan zaman İEOÖ-ə xüsusi yardımların göstərilməsi. ( Bu yardımlar bitki və heyvan sağlamlığı üzrə standart, telekomunikasıya üzrə texniki standartlar və s.),
2. Kənd təsərrüfatı üçün subsidiyaların limitinin müəyyən olunması. ( İEOÖ üçün bu 10% hesablanır, İEÖ isə 5%),
3. ÜTT-nin TBT və SPS sazişlərinə uyğun olaraq texniki qaydalar, standartlar, keyfiyyətin qiymətləndirilməsi prosedurları həmçinin, sanitar-fitosanitar tədbirlər hazırlanarkən və həyata keçirilərkən İEOÖ-lərin xüsusi ehtiyaclarının nəzərə alınmasının vacibliyinin qəbul edilməsi,
4. ÜTT-nin TBT, SPS, TRİPS və digər sazişlərinə uyğun olaraq İEOÖ-lərə texniki yardımın göstərilməsi və s (http://wto.az/azerbaycan-ve-utt/utt-ye-uzvluk/, 2019).

ÜTT-nin əsas prinsipi ayrıseçkiliyə yol verilməməsidir. ÜTT-yə üzv olan ölkələr, digər üzv ölkələrə bir başqa ölkələrə nisbətən daha əlverişli rejimin yaradılacağına dair öhdəlik götürür. Bu öhdəlikdən istisna isə Regional Ticarət Sazişləridir. Öz xarakterinə əsasən RTS ayriseçkilik edir və onu imzalayan müttəfiqlər bazarda daha əlverişli şərtlərə sahib olurlar.

ÜTT-nin şərtlərinə əsasən dövlətlər Regional Ticarət Sazişinə üzv olarkən ÜTT-yə bildiriş təqdim etməlidirlər. Azərbaycan belə 6 bildiriş ÜTT-yə təqdim edib.

Müstəqillik illərində Azərbaycan iqtisadiyyatını genişləndirmək məqsədi ilə Sovet İttifaqı ölkələri ilə arasında Azad Ticarət Sazişləri bağlamışdır. Hazırda ikitərəfli 9 Azad Ticarət Sazişində Azərbaycan tərəf kimi çıxış edir.

Bu ölkələr aşağıdakılardır.

1. Özbəkistan

2. Rusiya Federasiyası
3. Moldova
4. Ukrayna
5. Gürcüstan
6. Qazaxıstan
7. Qırğızıstan
8. Belarus
9. Tacikistan

İkitərəfli Sazişin əsas elementi kimi aşağıdakıları qeyd etmək olar:

1. Malın sazişdəki bir ölkənin gömrük ərazisində olması və digər ölkənin gömrük ərazisi üçün idxal və ixrac edilməsi nəzərdə tutularkən, sazişin ləğv olunması. Bu sazişə tərəflərin razılığı olaraq illik əlavələr və ya düzəlişlər də edilə bilər.
2. Malların mənşə ölkəsinin müəyyən edilməsi barədə qaydalar.
3. Ayrıseçkiliyə qarşı olan milli rejim və ən əlverişli ölkə rejminin tətbiq olunmasını nəzərdə tutan qaydalar.
4. Tərəflərin kvota və ya digər kəmiyyət məhdudiyyətlərinin tətbiq olunmasından yayınmaq haqqında öhdəlikləri. Buna baxmayaraq Sazişlərdə belə öhdəliklərdən istisnalar və bu məhüuüiyyyətlərin necə və hansı şərtlər daxilində tətbiq ediləcəyi qeyd edilir. Həmçinin Sazişlər iki tərəfin də razılığı olduğda kəmiyyət məhdudiyyətlərinin tətbiq olunmasına da icazə verir.
5. Tərəflərin gömrük sahəsində gömrük orqanlarının etdiyi əməkdaşlığının təmin olunması, gömrük klassifikasiyası üçün uyğun olan sistemdən istifadənin vacibliyi.
6. İxraca nəzarət siyasətinin əlaqələndirilməsi.
7. Haqsız rəqabət və biznes təcrübələrinə icarə verilməməsi ahqqında müddəalar.
8. Azad şəkildə tranzitin həyata keçirilmə hüququ.

9. Tərəflər özləri üçün mühüm hesab etdikləri hüquqları, maraqlarını müdafiə etmək üçün tədbirlətin tətbiq edilməsi. Belə müddəalar Sazişdə öz əksini tapmışdır.
10. Anlaşılmazlıqların və mübahisələrin danışıqlar yolu ilə həll edilməsi.

Oxşar cəhətləri olsa da, bu cür ikitərəfli Sazişlərin həm özünəməxsus fərqli tərəfləri, həm də oxşar cəhətləri möcvuddur. Bu Sazişlərin əsas bağlanma məqsədlərindən və ölkələrin ümumi, ortaq istəklərindən birbaşa aslıdır.

Gömrük hüququnun mənbəyi kimi respublikada gömrük fəaliyyətinin tənzimlənməsində iştirak edən gömrük qanunlarını iki şərti qarımqrupa ayırmaq olar.

1. Gömrük məsələlərini bilavasitə tənzimləyən qanunlar.
2. Gömrük məsələlərini dolayı tənzimləyən qanunlar. (A. Ş, Şəkərəliyev – Gömrük işinin təşkili və idarə edilməsi)

Gömrük işi ilə bağlı qəbul edilən qanunlar, əsasən də “Əməliyyat-axtarış fəaliyyəti haqqında” və “Gömrük tarifi haqqında” qanun birinci qrupa daxildir

İkinci qrupa isə əsasən “Azərbaycan Respublikası Vergi Məcəlləsi”, “Valuta tənzimi haqqında”, “Girov haqqında”, “Normativ hüquqi aktlar haqqında”, “istehlakçıların hüquqlarının müdafiəsi haqqında” qanunları və s. daxil etmək olar (http://unec.edu.az/application/uploads/2015/07/GOMRUK-HUQUQU.pdf, 2015).

Birinci qrupa daxi olan “Gömrük tarifi haqqında” qanuna əsasən respublika ərazisində daxili bazarın xarici bazarla qarşılıqlı əlaqələrinin qurulması, həmçinin ölkə sərhəddindən keçirilən mallara tətbiq olunan rüsümların tətbiqi qaydasını və xarici ticarətin tənzimlənməsində gömrük tarifinin formalaşması və tətbiqi qaydaları müəyyən edilir.

Gömrük tarifinin tətbiqi qaydaları və formalaşdırılması bu qayda ilə müəyyənləşdirilib. Əsas məqsədi malların Respublika ərazisinə daxil edilməsi və çıxarılması, idxalın əmtəə strukrunu daha da səmərələşdirmək, valuta gəlirlərinin və xərclərinin nisbətinin əlverişli olmasına şərait yaratmaq, valuta sərvətlərinin gömrük ərazisinə daxil olunmasında və çıxarılmasında əlverişli səmərəliyi təmin etmək, istehsal

strukturunda dəyişikliklər etmək, əmtəə, xidmət istehsalını həyata keçirilməsi üçün şərait yaratmaqdan ibarətdir. Bu məqsədlərdən başqa daxili iqtisadiyyatı xarici rəqabətin təsirlərindən qorunması və dünyaya inteqrasiya zamanı müsbət münbitin yaradılmasının təmin edilməsidir.

## 3.2. Ölkənin xarici iqtisadi əlaqələrinin səmərələşdirilməsində gömrük-tarif tənzimlənməsinin əsas prinsipləri.

Tarif mexanizmlərini reqlamentləşdirən normaların cəmi gömrük tarif tənzimlənməsi prinspləridir.

Gömrük-tarif münasibətlərinin tənzimlənməsində ilkin olaraq bir sıra müddəalardan biri olan vahid gömrük ərazisi prinspin nümunə göstərmək olar. Azərbaycan Respublikası gömrük ərazisi Xəzər dənizinin (gölünün) Azərbaycan Respublikasına məxsus bölməsindən, daxili sulardan və ən əsası quru ərazidən və onlara daxil olan hava hissəsindən ibarətdir.

Gömrük tarif münasibətlərinin tənzimlənməsində əsas qeyd olunan ilkin prinsip qanunçuluq prinsipidir. Bu prinsip gömrük tarif tənzimlənməsində əsas prinsip olaraq, onun demokratik xarakterliyini təmin edir. Bu prinsipin əsas hədəfi gömrük tarif siyasətinin formalaşması, təkmilləşdirilməsi üçün gömrük qanunları ilə müəyyənləşdirilməiş normadan istifadə edilməsi nəzərdə tutulub.

İkinci vacib prinsip kimi isə gömrük tarif münasibətlərinin aşkarlıq və açıqlıq prinsipidir. Gömrük tarif siyasətinin mövcud olan bütün mərhələli üzrə formalaşması və realizə prosesinin aşkarlığını göstərir. Gömrük tarif siyasətinin realizəsi dedikdə, gömrük tarif siyasəti tarif mexanizmi hüquqi bazası haqqında gömrük rüsumu ödəyicilərinə tam məlumatın verilməsin nəzərdə tutulur.

Ədalətli gömrü tarifi prinsipi də gömrük tarif tənzimlənəmsinin əhəmiyyətli prinsiplərindəndir. Qeyd etməliyik ki, bu prinsip gömrük siyasətinə əsaslanır. Gömrük sistemində özbaşınalığın, həddindən artıq alınan, yüksək vergilərin və digər belə mənfi halların qarşısını alır. Lakin ədalətlilik prinsipinin tarif münasibətləri tənzimlənməsinin

proteksionist funksiyası ilə əlaqəsi yoxdur. Bu səbəblə də belə hallardan yayınmaq üçün qanunvericilik iqtisadiyyatda fövqəladə hallar baş verəcəyi təqdirdə tənzimləmənin dəqiqliyinin təmin edilməsi üçün gömrük rüsumlarının ölçülərinin yeni vəziyyətə uyğun dəyişmə həddini müəyyən etməlidir.

Xarici iqtisadi fəaliyyətin təmin edilməsində dövlətin xarici ölkələrlə edilən əməkdaşlığı dövlətin əməkdaşlığı prinsipinə əsaslanır. Bu prinsipə əsasən gömrük tarif sistemində beynəlxalq səviyyədə əməkdaşlıqlar ikitərəfli səviyyədə, regional və universal formaşaşır və inkişaf edir (Şəkərəkiyev A.Ş., və Şəkərəliyeva Z.A., 2006).

Müstəqil olduqdan sonra Azərbaycan Respublikasının həm təbii resursları, həm əlverişli coğrafi mövqeyi, həm də iqtisadi siyasəti xarici iqtisadi əlaqələrinin sürətlə inkişaf etməsinə təkan verdi. Müstəqilliyin ilk illərində investorların ölkəmizə axını ölkəmizin təbbi sərvətlərinin hesabına xarici əlaqələrinin gücləndirilməsi üçün şərait yaratdı. Məlumdur ki, ölkəmiz tarix boyu böyük ipək yolunun üzərində yerləşib. Hazırki dövrdə də ölkəmizin coğrafi mövqeyi, həm Asiya, həm də Avropa ilə qonşu mövqedə yerləşməsi ölkəmizin ticarət əlaqələrinin güclənməsinə birbaşa təsir göstərir. Xarici ticarətin inkişaf etdirilməsi üçün Azərbaycan Respublikası regionda ilkin olaraq güclənməli, öz ixrac məhsulları üzrə dünya bazarında tnınmalı idi.

Hazırda Azərbaycanın dünya bazarında öz nüfuzu var və həm ixrac etdiyi mallara görə, həm də idxal etdiyi mallara görə dünya ölkələri ilə xarici ticarə əlaqələri uğurlu şəkildə qurulub. Azərbaycan həm də Beynəlxalq Təşkilatlara üzv olunmaqla da öz xarici iqtisadi əlaqələrini genişləndirir.

Azərbaycanın xarici iqtisadi münasibətlərində dövlətin ticarət əlaqələri qurduğu ölkələrlə aradakı münasibətlərin düz qurulmasında ən böyük rolu Dövlər Gömrük Komitəsi oynayır. Hazırki dövrdə istər daxili bazarın qorunması, milli təhlükəsizliyin təmin olunması və həmçinin xarici iqtisadi əlaqələrin qurulmasında komitənin xüsusi rolu var.

Hər bir ölkənin mükəmməl siyasətinin əsas aparıcı qüvvəsi sərhəddir. Sərhəd, hər bir ölkənin əsas dövlətçilik ideologiyasının başladığı sistemdir. Hal hazırda da

Azərbaycanın artan uğurlu siyasətində əsas rolu dövlətin milli maraqlarının keşiyində duran, daim sosial-iqtisadi inkişafın stimullaşdırılması üçün işlər görülən və dövlətin iqtisadi təhlükəsizliyinin keşiyində duran gömrük sistemi hazırda Azərbaycanda əvəzolunmaz, nüfuzlu bir xidmət göstərən orqandır.

Gömrük sistemində Azərbaycan Respublikasının xarici ticarətinin tənzimlənməsində əsas rolu gömrük-tarif sistemi oynayır. Aparılmış tədqiqatlardan görmək mümkündür ki, dövlətin xarici iqtisadi siyasətində gömrük-tarif sistemi dünya təsərrüfat sisteminə dövlətlərin ineqrasiyası, milli istehsalın atırılması üzrə stimullaşdırılmasına, milli təhlükasizliyin təmin olunmasında gömrük-tarif sisteminin böyük rolu var.

Xarici iqtisadi fəaliyyəti reallaşdırarkən dövlətin qanunvericiliyə uyğun olaraq apardığı iqtisadi, təşkilati və hüquqi tədbirlər xarici iqtisadi fəaliyyətin gömrük-tarif tənzimlənməsinə daxildir. İnzibati metodlar isə xarici iqtisadi fəaliyyətinin tənzimlənməsində mühüm rola malik olsa da gömrük-tarif tənzimlənməsi sisteminə daxil deyildir.

Ölkələr xarici ticarət əlaqələrini qurarkən gömrük məsələləri zamanı digər ölkələrin maraqlarını nəzərə almalıdır. Əgər digər ölkələrin maraqlarına zidd siyasət yeridilirsə və yaxud onların mənafeyinə uyğun olmayan siyasət yeridilirsə xarici iqtisadi əlaqələrdə ciddi problemlər yaşanıla bilər (Şəkərəliyev A., və Şəkərəliyeva Z., 2015).

Beynəlxalq-hüquqi əməkdaşlıq, gömrük rəsmiləşdirmələri qaydaları, bunlarda yanaşı müasir gömrük tarifləri, gömrük rəsmiləşdirilmələri gömrük sahəsində gündəlik zərurət halında göstərilir.

Beynəlxalq ticarət əlaqələri genişlənməsi, turist mübadilələri çoxluq təşkil etdiyi halda gömrük siyasətində mövcud olan əsas istiqamətlərin həmçinin fərqli dövlətlərin eyni növ normativ aktların koordinasiyasını nəzərdə saxlayan gömrük qanunvericiliyinin eyniləşdirilməsini vacib edir. Bu məqamda ölkələrarası razılaşma prinsipinə uyğun beynəlxalq gömrük rejminin tərtib olunması ön planda olur. Bu

rejimin tətbiqi ölkələr arasında daha sıx və ikitərəfli razılığın olduğu ticarət əlaqələri və digər əməkdaşlıqlar üçün böyük rol oynayır.

Azərbaycanın Avropa birliyinə və Ümumdünya Ticarət Təşkilatına daxil olmaq istəyi hazırki bazar iqtisadiyyatı şəraitində daxili qanunvericilikdə müəyyən dəyişikliklərin olunması, tətbiq olunan hər hansı hüquqi normaların beynəlxalq səviyyəyə uyğun olması, rəsmiləşdirmə əməliyyatların daha sürətli olması, eyniləşdirilməsi və sadələşdirilməsini zəruri edir. Son zamanlarda verilən müəyyən qərarlar da bu istiqamətdə atılmış addımlar sırasına daxildir. Tətbiq olunan vahid idxal gömrük rüsumu, əlavə dəyər vergisi məsələləri daha da sürətlənməsi, bəzi mallara aksiz vergisinin şamil olunması və bu istiqamətdə olan tədbirlərin vacib mərhələləridir.

Gömrük işi sahəsində qanunvericiliyin hüquqi normativ bazası "Gömrük Məcəlləsi" və "Gömrük tarifi haqqında" qanunla qoyulmuşdur. Gömrük-tarif tənzimlənməsi də bu qanunlar çərçivəsində öz həlli yolun tapır.

Bu əmrin əsas məqsədi Azərbaycanın xarici ticarəti zamanı daha da dürətli bir gömrük sisteminin yaradılmasını təmin etmək, mal və nəqliyyat vasitələrinin idxal, ixracı zamanı proseslərin sürətli olmasıdır.

## 3.3. Dünya təsərrüfat əlaqələrinin qloballaşması şəraitində gömrük-tarif tənzimlənməsinin təkmilləşdirilməsi istiqamətləri.

Hazırda Respublikamız qloballaşan dünya təsərrüfat sisteminə sürətli şəkildə inteqrasiya edir. Ölkəmizin inkişaf tempinin davamlı olması üçün Azərbaycan Respublikasının qanunvericiliyinə əsasən gömrük orqanlarına bəzi mühüm vəzifələr tapşırılmışdır. Bu vəzifələrin əsas məqsədi ölkənin iqtisadi təhlükəsizliyinin təmin olunması və dünya təsərrüfatı ilə əlaqələrin daha da genişləndirilməsinin təmin olunması üçündür. Bu yeniliklər daxilində gömrük sisteminin həyata keçirdiyi yeniliklərə aşağıdakılar daxildir.

1. İdxal-ixrac əməliyyatları sahəsində gömrük nəzarətinin təkmilləşdirilməsi,

2. Gömrük orqanları daxilində maliyyə-vergi mexanizmlərinin və xarici iqtisadi fəaliyyətdə gömrük-tarif tənzimlənməsi,
3. Gömrük məcəlləsinə uyğun yeni layihələrin hazırlanması,
4. Gömrük qaydalarının pozulması, qaçaqmalçılığa qarşı mübarizənin gücləndirilməsi,
5. Azərbaycan Respublikası gömrük xidmətinin bütün işlərdə Vahid Avtomatlaşdırılmış İdarəetmə Sisteminin (VAİS) tətbiq edilməsi,
6. Beynəlxalq əməkdaşlıqları genişləndirmək, və s.

Azərbaycan Respublikası Gömrük Komitəsi bu istiqamətlərdə bir sıra işlər görmüş və hal hazırda da görülməyə davam edilir.

2016-cı ildə Dövlət Gömrük Komitəsində "Regional tranzit ticarətinin sadələşdirilməsi" barədə Asiya İnkişaf Bankının nümayəndələri ilə görüş keçirilib. Bu tədbirin təşkili Asiya İnkişaf Bankının Mərkəzi Asiya Regional İqtisadi Əməkdaşlıq (CAREC) proqramı çərçivəsində baş verib.

Həmin görüşün əsas məqsədi Azərbaycanın coğrafi mövqeyi ilə bağlı gömrük sistemin ölkə iqtisadiyyatına təsirindən bəhs edilib. Bununla bağlı gömrük sistemində şəffaflığın artırılması, əsasən xarici əlaqələr zamanı beynəlxalq ticarətin sürətlənməsi və və prosesin asanlaşdırılması olub.

Hal hazırda gömrük sistemində prosedurların daha da sadələşdirilməsi və gömrük risklərinin idarə edilməsində atılan addımlara "Yaşıl dəhliz" sistemini göstərmək olar. "Yaşıl dəhliz sistemi barədə danışan Əsgər Abdullayev qeyd edib ki, bu yenilik əsas Şərq-Qərb və Şimal-Cənub dəhlizləri üzrə münasibətlərdə Azərbaycanın rolunu daha da artıracaq. (https://customs.gov.az/az/sahibkarlar-ucun/green-corridor/, 2020)

"Yaşıl dəhliz" buraxılış sisteminin əsas məqsədi xarici ticarət zamanı qanunvericiliyə riayət edən iştirakçılar üçün əlverişli şəraitin təmin olunması, qanunvericiliyiə könüllü riayət etmə mədəniyyətin formalaşdırmaq, gömrük auditi ilə gömrük nəzrətinin sürətləndidilməsi, rəsmiləşdirmənin daha da sürətli və şəffaf edilməsi. Həmçinin gömrük risklərinin qiymətləndirilməsidir. Bu sistem daxilində həm

də gömrük yoxlamaları zamanı fiziki yoxlamanını azalması, ölkənin möcvud ixrac potensialını gücləndirmək və əldə olan resurslardan optimal istifadəni mövcud etməkdir.

Xarici ticarət iştirakçıları "Yaşıl dəhliz" buraxiliş sisteminin üstünlükləri aşağıdakılardır.

- Buraxılış zamanı sərhəd buraxılış məntəqələrindən xarici ticarət iştirakçıları prioritet keçidi,
- Gömrük xidmətlərindən istifadə edilərkən prioritetlik,
- Mimimum fiziki yoxlamalar
- Gömrük ekspertizasının aparılması zamanı prioritet qaydaların müəyyən olunması,
- Gömrük rəsmiləşdirilmələrinin edilməsi iş vaxtından və iş yerindən kənar olması,
- Xarici ticarət sahəsində təlimlərdə iştirak,
- xarici ticarət iştirakçılarının idxal etdiyi malların gömrüyə gəlmədən anbarına aparılması və malların boşaldılması,
- İxrac zamanı da malların özü gömrüyə gəlmədən birbaşa anbarından aparılması.

Bundan əlavə ölkəmizin gömrük sistemində beynəlxalq əlaqələrin gücləndirilməsi üçün Ümumdünya Gömrük Təşkilatının Azərbaycanda potensialının gücləndirilməsi üçün regional ofisinin açılması olmuşdur. 2009-cu ildə regional ofisin açılması üçün ilkin danışıqlar başlanmışdır. Dünyanın bir çox güclü ölkələri, o cümlədən Avropa İttifaqınada olan dövlətlər də Regional ofisin öz ölkələrində olmasını istəmişdirlər. Lakin sonda bütün proseslər Azərbaycanın xeyrinə həll olunmuş və bu Regional ofis Azərbaycanda tikilmişdir.

2011-ci ildə oktyabr ayının 17-sində Ümumdünya Gömrük Təşkilatının Potensialın Gücləndirilməsi üzrə Avropa Regional Ofisinin açılış mərasimi Bakıda keçirilmişdir. Gömrük Komitəsinin beynəlxalq standartlarla çalışması üçün, yerli

gömrük mütəxəssislərin həmin ofisdə çalışaraq, xarici işçilərlə birgə işləyib beynəlxalq metodikaya yiyələnməkləri üçün Azərbaycanda Regional Ofisin açılmaı vacib idi.

Respublikamızın Gömrük sahəsində inkişafı üçün beynəlxalq əlaqələrinin gücləndirilməsi istiqamətində bir çox işlər görülüb. Xüsusən də gömrük-tarif tənzimlənməsinə olunan yeniliklər, yeni əlaqələr hal hazırda gömrük sisteminin əsas hədəflərindəndir. Gömrük sahəsində beynəlxalq əlaqələrin daha gücləndirilməsi, genişləndirilməsi və inkişaf etdiriməsi məqsədilə, Komitə tərəfindən əməkdaşlıq aparılan və aparılması planlaşdırılan ölkələrin gömrük orqanları ilə birgə beynəlxalq normalara uyğun pratokol, saziş və digər uyğun sənədlər hazırlanmış və digər lazımı tədbirlər görülmüşdür. Gömrük sahısində müxtəlif ölkələrlə, müxtəlif sahələrə uyğun qarşılıqlı razılaşmalar imzalanmışdır.

Qazaxıstan, Rusiya, Belarusiya kimi və Beynəlxalq təşkilatlarla onlara üzv olan ölkələr arasında bəzi razılıqlar imzalanmışdır. Bu əməkdaşlıqlar gömrük sahəsində bütün sahələrə uyğun olaraq imzalanmışdır. İstər gömrük-tarif tənzimlənməsinə uyğun, istər kadr hazırlığında daha da peşəkarlaşmaq üçün qarşılıqlı razılaşmalar mövcuddur. Bütün bu razılaşmalar ölkələrin iqtisadi və siyasi cəhətdən yaxınlaşması üçün atılan addımlar planıdır.

Daha əlverişli üsul isə ticarət müqavilələridir. Hansı ki, ticarət müqavilələri hesabına ölkələr həm ikitərəfli, həm də çoxtərəfli əlaqələr qura bilərlər. Bunlara ən real misal kimi QATT-ÜTT kimi təşkilatların fəaliyyətini misal gətirmək olar. Belə ki, QATT-a üzv olduqda ölkələr bilirlər ki, bu təşilata üzv olan ölkələr bir birlərinə həm xarici ticarət əlaqələrində, həm də gömrük sistemində bir birlərinə  əlverişli şərait yaradır.

İnteqrasiya prosesində iştirak edən ölkələr öz münasibətləri çərçivəsində azad iqtisadi zonaları yaradırlar. Bu azad iqtisadi zonasının yaradılması digər ölkələrlə nisbətdə gömrük tariflərində güzəştlər edilir. İnteqrasiyada iştirak etməyən ölkələrdə gömrük tariflərini saxladıqları halda, öz aralarındaki xarici ticarət zamanı gömük tarifini tamamən ləğv edirlər.

17 mart 2016-cı ildə Prezident İlham Əliyevin azad iqtisadi zona xarakterli xüsusi iqtisadi zona yaradılması ilə bağlı Sərəncam imzalayıb. Azad İqtisadi Zona Bakı şəhəri, Qaadağ rayonunda yerləşən Ələt qəsəbəsində və həmin qəsəbənin Bakı Beynəlxalq Dəniz Ticarət adlanan Limanı da daxil olmaqla ərazini əhatə edir. Bu Azad İqtisadi Zona (AİZ) Avropa-Asiya arasındakı logistika zəncirində və beynəlxalq yükdaşımalarda aparıcı yol oynamaqla bərabər həmçinin Azərbaycanın dünyada "Made İn Azerbaijan" brendinin tanınmasında da böyük əhəmiyyət göstərir.

Bu ərazidə yalnız xarici ticarət üçün fəaliyyətlər planlaşdırılmayıb. Azərbaycan bu zonadan öz fəaliyyəti ilə əlaqədər də istifadəni planlaşdırır. Bu zonada əlavə dəyər yaradan xidmət sahələrinin və istehsal sahələrinin yaradılması da planda var. Mebel istehsalı, kənd təsərrüfatı, neft-kimya sahəsi və s. sahələrin qurulması burda proritet hədəfdir.

Dünya təsərrüfatına inteqrasiya etmənin ən güclü üsullarından biri gömrük ittifaqlarının yaradılmasıdır. Bu halda gömrük tarifini ümumi tətbiq edərək, istehsal faktorlarının, malların sərbəst hərəkətinə şərait yaratmaq gömrük ittifaqının yaradılmasının əsas göstəricilərindəndir.

Hər bir ölkənin olduğu kimi Azərbaycanın da dünya təsərrüfatına inteqrasiyası zamanı vacib olan məsələlərdlən biri də gömük tarifidir. Ölkənin dünya təsərrüfatına inteqrasiyası zamanı gömrük tarifinin dünya ölkələrinin bu sahədə olan təcrübələrinə malik olması zəruridir. Gömrük tarifi gömrük siyasətinin reallaşdırılması ilə əlaqədar özünə məxsus xüsusiyyətə sahibdir. Həmçinin ölkənin xarici ticarətinin tənzimlənməsində xüsusi rol oynayır. Bu halda gömrük rüsumlarının növləri, dərəcəsi və digər göstəriciləri, əmtəə nomenklaturası, daxili tələbatın müəyyənləşdirilməsi, idxal, ixracın struktru və həcmi haqqında məlumatların toplanması çox mühüm əhəmiyyət kəsb edir. İlk öncə xarici dövlətin inkişaf struktrunun müqaisəli təhlil olunması və buna uyğun gömük tarif tənzimlənməsində həmin təcrübəyə yiyələnmək yolu planlamaq lazımdır.

Gömrük tarif tənzimlənməsində ən başlıca müddəa kimi ən başlıca ədalətli gömrük prinspin göstərmək olar. Bunu qeyd etmək lazımdır ki, bu prinsip gömrük siyasətinə əsaslanan pronsipdir. Bu prinsip gömrük sahəsində olan həddindən artıq ədalətsiz və yüksək vergilərin ödənilməsinin, inzibati özbaşınalığın qarşısını alır. Lakin bu halların gömrük tarif tənzimlənməsinin funksiyalarından biri olan proteksionist funksiya ilə əlaqəsi yoxdur. Bu səbəbdən də iqtisadiyyatda qanunvericiliyin rolu ilə fövqəladə hallarda tənzimetmənin dəqiqliyinin təmin olunmasına kömək etmək üçün gömrük tarif sistemi vasitəsilə rüsumların ölçülərinin vəziyyətə uyğun dəyişmə həddini müəyyən etməlidir.

Həmçinin gömrük tarif tənzimlənməsi öz növbəsində qanunvericiliklə müəyyən olunmuş qaydada, dövlət orqanları tərəfindən reallaşdırılan və beynəlxalq əlaqələrdə xarici iqtisadi fəaliyyətin tənzimlənməsi istiqamətində yönləndirilmiş təşkilati, hüquqi və iqtisadi tədbirlərin cəmi kimi də müəyyən edilib (Şəkərəliyev A., və Şəkərəliyeva Z., 2015).

## NƏTİCƏ VƏ TƏKLİFLƏR

Ölkə iqtisadiyyatının qloballaşma şəraitində qarşıya qoyduğu əsas məqsəd xarici iqtisadi fəaliyyətdə uğurlu əməkdaşlığın yaradılmasıdır. Xarici iqtisadi fəaliyyətin idarə olunmasında gömrük-tarif tənzimlənməsinin xüsusi rolu var. Gömrük-tarif tənzimlənməsi dövlətin gömrük siyasətinə uyğun olaraq tənzimlənir. Dövlət xarici iqtisadi fəaliyyətin tənzimlənməsi zamanı inzibati və iqtisadi tənzimlənmə metorlarından istifadə edir.

Hazırda respublikamız inkişaf etmiş ölkələrin təcrübəsinə əsaslanaraq öz xarici iqtisadi fəaliyyətini təkmilləşdirmək istiqamətində böyük işlər görür. İdxal və ixrac əməliyyatlarının həcminə nəzər saldıqda görünür ki, ixrac əməliyyatlarının əsas hissəsini və böyük həcmini neft və neft məhsulları, idxal əməliyyatlarının əsas həcmini isə yeyinti məhsulları, yüngün sənaye məhsulları təşkil edir. Qloballaşma şəraitində, beynəlxalq ticarət əlaqələrinin inteqrasiya proseslərində texnoloji avadanlıqlara tələbin artmasını nəzərə alaraq, idxal, ixrac əməliyyatlarında texnoloji məhsullara üstünlük verilməsini daha aktualdır.

Respublikamızın iqtisadi təhlükəsizlik sisteminə nəzər saldıqda ölkədə iqtisadi təhlükəsizliyin təmin olunmasını qənaətbəxş hesab etmək olar. Hazırki iqtisadi siyasətdə atılan addımlar qeyri neft sektoruna olan xüsusi diqqət və bu sahəyə olan investisiya cəlbi iqtisadi təhlükəsizliyin təmin olunmasının inkişafına da öz təsirini göstərir.

Qloballaşma şəraitində xarici ticarətin dövlət tənzimlənməsi prosesi zamanı həyata keçirilən tədbirlər iqtisadiyyatın inkişafına istiqamətlənmiş və xarici ticarətin beynəlxalq səviyyəyə uyğunlaşdırılmasından ibarətdir. Dövlət xarici ticarətin inkişaf etdirilməsi üçün iqtisadiyyatın bütün sahələrinin bu məsələyə yönləndirməsini təmin edir.

Əsas məsələlərdən biri də gömrük-tarif mexanizminin təkmilləşdirilməsidir. Müstəqillik bərpa edildikdən sonra əsasən xarici iqtisadi fəaliyyətə önəm verən

Azərbaycan dövləti bu fəaliyyətin tənzimlənməsində gömrük mexanizmininin təkmilləşdirilməsi isriqamətində xüsusi tədbirlər görmüşdür. Sovetlər İttifaqı dövründə ölkə üzrə bütün idxal, ixrac əməliyyatları bir mərkəzdən idarə olunduğundan gömrük mexanizmi milli maraqlara xidmət etmirdi.

Müasir gömrük-tarif sistemi mexanizminin yaradılması, ölkə iqtisadiyyatının inkişafına və daxili bazarın formalaşmasına şərait yaratdı. Bu isə artıq ölkə iqtisadiyyatına gömrük-tarif sisteminin birbaşa təsir edəcəyi anlamına gəlir. Bu nöqteyi nəzərdən gömrük-tarif tənzimlənməsi beynəlxalq normalar çərçivəsində, mövcud qanunvericilik bazasının genişləndirilməsi və beynəlxalq təcrübənin tətbiqi ilə daha səmərəli olar.

Xarici iqtisadi fəaliyyətdə qeyri-tarif metodlarından fərqli olaraq, gömrük-tarif tənzimləmələrinin tətbiqini daha məqsədə uyğun hesab etmək olar.

Daxili bazarın və milli istehsalın iqtisadi təhlükəsizliyinin təmin edilməsində gömrük-tarif tənzimlənmə sisteminin xüsusi rolu vardır. Gömrük-tarif siyasəti xarici iqtisadi fəaliyyətdən mənfəət qazanmaqla yanaşı, ölkənin fiskal məsələlərinin həllində də böyük rol oynayır.

Ölkənin xarici iqtisadi fəaliyyətinin əsas məqsədi milli iqtisadiyyatı dünya miqyasında təqdim etmək və onun maraqlarını müdafiə etmək, həmçinin xarici iqtisadi fəaliyyəti beynəlxalq normalara uyğunlaşdırmaqdır.

Aparılan araşdırmaların nəticəsi olaraq dissertasiya işində bir sıra təklif və tövsiyyələr irəli sürülmüşdür.

1. Səmərəli inteqrasiya şərtlərinin təmin edilməsi üçün ölkənin gömrük siyasətinin, mövcud qanunvericilik bazasının beynəlxalq təcrübəyə əsaslanaraq təkmilləşdirilməsini məqsədəuyğun hesab etmək olar.
2. Ölkənin idxaldan asılılığının azaldılması və ixrac əməliyyatlarında gömrük rüsumlarının stimullaşdırılması istiqamətində idarəetmə mexanizminin hazırlanması daha səmərəli nəticələrin əldə olunmasına şərait yarada bilər.

3. Xarici iqtisadi fəaliyyətdə idxal-ixrac əməliyyatlarının həyata keçirilməsində qeyri-tarif metodlarından fərqli olaraq gömrük-tarif tənzimlənmələri mexanizminə üstünlük verilməsi iqtisadi cəhətdən daha səmərəli olar.

# İSTİFADƏ OLUNMUŞ ƏDƏBİYYAT SİYAHISI

## Azərbaycan dilində


1. Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsi haqqında Əsasnamənin və komitənin strukturunun təsdiq edilməsi barədə AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI əsasnamə - maddə 3.1.2
2. «Azərbaycan Respublikası Hökuməti və Amerika Birləşmiş Ştatları Hökuməti arasında gömrük məsələləri üzrə qarşılıqlı yardım və əməkdaşlıq haqqında» Sazişin təsdiq edilməsi barədə Azərbaycan Respublikasının Qanunu. Azərbaycan Respublikasının Qanunvericilik Toplusu»nda dərc edilmişdir (30 iyun 2007-ci il, № 6, maddə 569)
3. Azərbaycan Respublikasında xarici ticarətin daha da liberallaşdırılması haqqında. Azərbaycan Respublikası Prezidentinin 1997-ci il 24 iyun tarixli Fərmanı.
4. "Azərbaycan gömrüyünün tarixi"(2017),Bakı, "Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin Mətbuat Xidməti", səh-176
5. Abbasbəyli A. N., (2007). "Müasir beynəlxalq münasibətlər və qloballaşma", Bakı, səh-165
6. Vəliyev D. Ə., (2008). "Azərbaycanın qlobal iqtisadiyyata inteqrasiyası", Bakı, səh-426
7. "Lisenziyalaşdırma sahəsində bəzi tədbirlər haqqında" 2015-ci il 21 dekabr tarixli Fərmanı
8. Bayramov.V - Azərbaycanın ÜTT-ə Üzvlük Prosesinin Qiymətləndirilməsi üzrə Siyasət Sənədi,Bakı, (2010).
9. Əliyev A.Ə.,(2003). "Gömrük işi və dünya iqtisadiyyatinin inkişafı",Bakı, "Çaşıoğlu", səh-240.
10. Əliyev H. Ə., (2007). "Müstəqilliyimiz əbədidir" Bakı, Azərnəşr, səh-480

11.Əsədov F.Ə.,(2009).” Azərbaycan Xalq Cümhuriyyətinin gömrük siyasəti”,Bakı,”İqtisad Universiteti”, səh-60
12.Quliyev E.Q., Mehrəliyev İ.M., (2012) “Gömrük işinin təşkili”, Bakı, “Kooperasiya”, səh-400
13.Mehdiyev R. (2005). “Azəebaycan: Qloballaşma dövrünün tələbləri”, Bakı, “XXI – Yeni Nəşrlər Evi” səh-464.
14.Mehrəliyev İ.M., Abduləzimov Ə.A.,(2008). “Gömrük fəaliyyətinin iqtisadiyyati”,Bakı,” Adiloğlu”, səh-320.
15.Məmmədov N.M., Bərxudarov M.İ., (2006). “İqtisadi təhlükəsizlik”, Bakı, “İqtisad Universiteti” nəşriyyatı, səh-452
16.Nuriyev C.Q.,(2009). “Azərbaycanın gömrük tarixi”, Bakı, səh-75
17.Nuriyev C.N.,Əliyev A.Ə.,Atakişiyev M.A.,(2012). “Gömrük işinin təşkili və idarə edilməsi”,Bakı, “Apostrof ”, səh-332
18.Rüstəmov V.Ə.,( 2007). “Azərbaycan və Ümumdünya Ticarət Təşkilatı: Tariflər”, Bakı, “Səda” nəşriyyatı, səh-70
19.Şəkərəliyev A.Ş., Şəkərəliyeva Z. A.,(2006). “Xarici iqtisadi fəaliyyətin gömrük-tarif tənzimlənməsi”, Bakı, “İqtisad Universiteti”, səh-228
20.Şəkərəliyev A.Ş.,(2009).” “Dövlətin iqtisadi siyasəti:Realliqlar və perspektivlər (monoqrafiya)”,Bakı,” İqtisad Universiteti”, səh-415
21. Şəkərəliyev A.Ş., Şəkərəliyeva Z. A.,(2014). “Gömrük işinin təşkili və idarə edilməsi”, Bakı , “İqtisad universiteti”, səh-160.
22. Şəkərəliyev A.Ş., Şəkərəliyeva Z. A.,(2015). “Gömrük işinin təşkili və idarə edilməsi”, Bakı , “İqtisad universiteti”, səh-168.
23.Şəkərəliyev A.Ş., Nuriyev C.N., Əliyev A.Ə.,Şəkərəliyeva Z.Ş(2018).“Gömrük işinin təşkili və idarə edilməsi”,Bakı, “İqtisad Universiteti”, səh-292
24. Vavilova Y.V., Borodulina L.B.,(2009). “Beynəlxalq ticarət”, Ələkbərov Ə.Ə.,Bakı, “İqtisad universiteti”, səh- 342

25. Vəliyev T.S., Babayev Ə. P., Meybullayev M.X. (2001). “İqtisadi nəzəriyə”, Bakı, ““Çaşıoğlu” nəşriyyatı, 691 s.

## İngilis dilində

1. “Agreement on Implementation of Article” VI of the General Agreement on Tariffs and Trade, WTO: http://i-tip.wto.org/goods/Default.aspx
2. Custom Expert :http://customsexpert.ru/practicum/legal-entity/o-tamozhennom-regulirovanii.htm
3. Finnish Customs, 2015. Export. (online) Available at: Accessed 3 October 2016, http://tulli.fi/en/businesses/export
4. Finnish Customs, 2015. Import. (online) Available at: Accessed 3 October 2016, http://tulli.fi/en/businesses/import
5. World Customs Organization”, http://www.wcoomd.org/
6. “World Trade Organization”, https://www.wto.org/

## İnternet resursları

1. https://mida.gov.az/ – Azərbaycan Respublikasında logistika və ticarətin inkişafına dair Strateji Yol Xəritəsi., 2016
2. http://customs.gov.az/ – Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi”-nin rəsmi saytı
3. http://www.e-qanun.az/framework/26154. – Gömrük tarifi haqqında Azərbaycan Respublikasının Qanunu
4. http://unec.edu.az – İqtisad universitetinin rəsmi saytı
5. https://president.az/ - AR Prezident Aparatının rəsmi ünvanı
6. http://www.taxes.gov.az – Vergilər Nazirliyi;
7. http://www.taxes.gov.az – Vergilər Nazirliyi;
8. https://portofbaku.com/az/Alyat-Logistics-and-Trade-Zone-ALTZ/
9. http://newtimes.az/az/processestrends/3315/

## Cədvəllərin siyahısı

Cədvəl 1: Xarici ticarətin əsas gömrük göstəriciləri ............................................ 41
Cədvəl 2: İxrac üzrə ticarət əməliyyatları ............................................................. 42
Cədvəl 3: İxrac əməliyyatları ən çox aparılan ölkələr ............................................ 44
Cədvəl 4: İdxal üzrə ticarət əməliyyatları həcmi ................ **Ошибка! Закладка не определена.**45
Cədvəl 5: İdxal əməliyyatları ən çox aparılan ölkələr ........ **Ошибка! Закладка не определена.**46
Cədvəl 6: İxracda əsas mallar (min ABŞ dolları) .............. **Ошибка! Закладка не определена.**47
Cədvəl 7: İdxalda əsas amllar (min ABŞ dolları) .............. **Ошибка! Закладка не определена.**48
Cədvəl 8: Avtomobillərin idxalı haqqında məlumat........... **Ошибка! Закладка не определена.**49
Cədvəl 9: Daşınan yüklərin ixrac yollarının həcmi ........... **Ошибка! Закладка не определена.**50
Cədvəl 10: Daşınan yüklərin idxal yollarının həcmi .......... **Ошибка! Закладка не определена.**51
Cədvəl 11: 2020-ci il yanvar ayı, gömrük daxilolmaları .... **Ошибка! Закладка не определена.**52
Cədvəl 12: Son 3 il üzrə gömrük daxilolmaları ................. **Ошибка! Закладка не определена.**52

## Qrafiklərin siyahısı

Qrafik 1: Xarici ticarətdə idxal və ixracın həcmi................ **Ошибка! Закладка не определена.**41
Qrafik 2: İxrac üzrə ticarət əməliyyatları həcmi ................ **Ошибка! Закладка не определена.**43
Qrafik 3: İdxal üzrə ticarət əməliyyatları həcmi ................ **Ошибка! Закладка не определена.**45
Qrafik 4: İxracda əsas mallar (min ABŞ dolları) ................ **Ошибка! Закладка не определена.**47
Qrafik 5: İdxalda əsas mallar (min ABŞ dolları) ................ **Ошибка! Закладка не определена.**48
Qrafik 6: Daşınan yüklərin ixrac yollarının həcmi ............. **Ошибка! Закладка не определена.**50
Qrafik 7: Daşınan yüklərin idxal yollarının həcmi ............. **Ошибка! Закладка не определена.**51
Qrafik 8: Son 3 il üzrə gömrük daxilolmaları**Ошибка! Закладка не определена.**53